## Səyyad Əlizadə vəfat edib



**Yeni növ koronavirusa (COVID-19) yoluxan müğənni Səyyad Əlizadə vəfat edib.**

Bu barədə APA-ya müğənni Nadir Bayramlı məlumat verib.

Qeyd edək ki, koronavirusa yoluxan Səyyad Əlizadə bir müddət öncə Mərkəzi Gömrük hospitalına yerləşdirilmiş və EKMO cihazına qoşulmuşdu. Mərkəzi Gömrük Hospitalında S.Əlizadə süni komaya salınmışdı. Sənətçinin ağciyərinin 80 faizinin buzlaşdığı bildirilirdi.

**Allah rəhmət eləsin!**

## Hərbçimiz Zəngilanda minaya düşüb



**Dünən saat 15:00 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Nəzərxanlı Elgün Elxan oğlu Zəngilan rayonu ərazisində xidmət apardığı sərhəd döyüş məntəqəsinə hərəkət zamanı piyada əleyhinə minaya düşərək xəsarət alıb.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Şərq"ə verilən məlumata görə, ilkin tibbi yardım göstərildikdən sonra hərbi qulluqçu helikopterlə Füzuli rayonunun Əhmədbəyli qəsəbəsində yerləşən hərbi hospitala təxliyə edilib, həkimlərin tam nəzarəti altındadır.




№ 178 (5460), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

1 oktyabr 2021-ci il (cümə)

## Milli Məclis Türkiyə ilə Azərbaycan arasında xüsusi təyinatlılarla bağlı sənədi təsdiq edib

**Milli Məclisdə "Azərbaycan Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" qanunun layihəsi müzakirəyə çıxarılıb.**

2021-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış Memorandum Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının təlimləri zamanı onların ölkəyə giriş-çıxışın tənzimlənməsi və digər məsələləri özündə əks etdirir.

Deputatlar çıxış edərək Memorandumumun iki qardaş ölkə arasında hərbi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsinə imkan verəcək.

*Müzakirələrdən sonra Memorandum səsverməyə çıxarılaraq təsdiq edilib.*

# Ermənistan öz seçimini etməlidir



## "Liderlərinin görüşü ciddi hazırlıq tələb edir"

Rusiya XİN: "Həmsədrlərin səfəri Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünə əlverişli şərait yaradacaq"

**"Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil etmək ciddi hazırlıq tələb edir".**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat və İnformasiya Departamentinin direktor müavini Aleksey Zaytsev dünən keçirdiyi brifinqdə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşə hazır olmasına dair bəyanatına münasibət bildirərkən deyib. (apa)

"Rusiya problemli məsələlərin həllində ali və yüksək səviyyədə müntəzəm dialoqun hər zaman qarşılıqlı anlaşmaya və konstruktiv atmosferin dəstəklənməsinə kömək etdiyi qənaətindədir. Məhz Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan və Ermənistan liderləri ilə intensiv təmasları sayəsində Qarabağda qan tökülməsi dayandırıldı və üçtərəfli bəyanatı imzalamağa nail olundu. Başa düşürsünüz ki, bu cür yüksək səviyyəli görüşləri təşkil etmək ciddi hazırlıq tələb edir. Minsk Qrupu həmsədrlərinin regiona səfəri bu görüş üçün əlverişli şəraitin yaradılmasına kömək edəcək", - Rusiya XİN nümayəndəsi vurğulayıb.



## Ceyhun Bayramov:

*"Bəzi istiqamətlərdə İrəvan tərəfindən konstruktiv addım müşahidə olunmur"*

**"Azərbaycan tərəfinin konstruktiv yanaşmasına, üçtərəfli bəyanatın şərtlərinə tam riayət olunmasına, bir sıra hallarda birtərəfli müsbət addımların atılmasına baxmayaraq, bəzi istiqamətlərdə Ermənistan tərəfindən konstruktiv addım müşahidə olunmur".**

Bunu xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki ilə cümə axşamı keçirilən birgə mətbuat konfransı zamanı deyib.

Nazir bildirib ki, Azərbaycan 10 aydan artıq bir müddətdir ki, üçtərəfli bəyanatın icrası ilə məşğul olur. Sözügedən bəyanatın müddəaları icra edilib, lakin bəzi istiqamətlərdə hələ də açıq məsələlər qalmaqdadır:

"Qeyd edilən istiqamətlərin ən vacibləri sırasında 8 ay ərzində mina xəritələrinin təqdim olunmaması dayanır. Ermənistan tərəfi 8 aydan sonra xəritənin kiçik hissəsini çox aşağı keyfiyyətdə təqdim etdi. Bu prosesin üçtərəfli bəyanatlara zidd olaraq başa çatdırılmaması çox böyük əngəl olaraq qalmaqdadır.

Eyni zamanda həmin ərazilərin yenidən qurulmasını, qaçqın və məcburi köçkün vətəndaşlarımızın öz torpaqlarında məskunlaşmasını ləngidən prosesdir."

C.Bayramovun sözlərinə görə, 30 il ərzində Azərbaycan və Ermənistan sərhədində delimitasiya və demarkasiya reallaşmayıb. Bunun da əsas səbəbi Azərbaycan torpaqlarının işğal altında olması idi.

Nazir qeyd edib ki Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Sərhədlərlə bağlı məsələ normal və sivil qaydada həll olunmalı, delimitasiya prosesi həyata keçirilməlidir:

"Azərbaycan bu istiqamətdə konstruktiv olub, amma Ermənistan tərəfinin qeyri-konstruktiv addımlarını, bəhanələrini görürük. Ermənistan öz seçimini etməlidir: qonşulara qarşı ərazi iddiaları, yoxsa konstruktiv əməkdaşlıq? Azərbaycan beynəlxalq hüquq prizmasından çıxış edir. Stabil və inkişafa yönəlmiş mühit üçün bu yanaşmanın alternativi yoxdur. Ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət edilməlidir".



## Nigar Arpadarai AŞPA-da məruzəçi seçilib

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü Nigar Arpadarai Miqrasiya, Qaçqın və Məcburi Köçkünlər Komitəsi tərəfindən "İdman vasitəsilə miqrantların, qaçqınların və məcburi köçkünlərin sosial həyata inteqrasiyası" mövzusunda məruzəçi təyin olunub.**

Bu barədə deputat özünün "Facebook" səhifəsində məlumat verib.

*Qeyd edək ki, AŞPA-nın sentyabrın 27-dən başlayan payız sessiyası bu gün yekunlaşır.*

## Vəfat edənlərin sayı 12 nəfərə düşdü

Son sutkada 774 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 774 yeni yoluxma faktı qeydə alınıb, 1 778 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 483 902 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 458 922 nəfər müalicə olunaraq sağalıb, 6 525 nəfər vəfat edib, aktiv xəstə sayı 18455 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 484, ötən müddət ərzində isə ümumilikdə 4 859 015 test aparılıb.

# Soçi görüşü Bakının maraqlarına uyğun keçib

Ehtimal olunur ki, Türkiyə Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi prosesinə də qatılsın



**Kremlin mətbuat katibi Dmitri Peskov Rusiya və Türkiyə prezidentlərinin Soçidə baş tutan danışıqlarının təfərrüatlarını açıqlayıb. Peskov Vladimir Putin və Rəcəb Tayyip Ərdoğan görüşünün konstruktiv keçdiyini, iki ölkə üçün vaxtında, lazımlı və faydalı təmaslar olduğunu bildirib. Onun sözlərinə görə, Putin-Ərdoğan danışıqlarında əsas söhbət ilk növbədə ikitərəfli münasibətlərdən gedib:**

"Putin Rusiya mallarına Türkiyədə tətbiq olunan məhdudlaşdırmalar mövzusunu qaldırıb. İqtisadiyyatda qarşılıqlı məhdudlaşdırmaların saxlanılmasına diqqət yönəldilib. Bu məhdudlaşdırmalar, məsələn, Türkiyədə Rusiyanın metallurgiya və digər məhsullarına tətbiq edilən əlavə idxal rüsumlarıdır. Bundan başqa, liderlər kosmik sahədə əməkdaşlığı, türkiyəli kosmonavtın uçuşa hazırlığını müzakirə ediblər". Peskov Rusiya və Türkiyə liderlərinin Soçi görüşündə Suriya böhranını detallı müzakirə etdiklərini söyləyib: "Regional münaqişələr də liderlərin gündəliyində idi. Suriya ilə bağlı detallı fikir mübadiləsi aparıldı. Əfqanıstan və Liviya barədə də danışıldı.

(səh.3)



## Şəhid ailələri və qazilərə sosial dəstək

17 qanuna əlavə və dəyişiklik edilib

**Şəhid və qazi ailələrinə sosial qayğı hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olub.**

Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Milli Məclisin dünən keçirilən iclasında "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər müzakirə edərkən deyib.

M.Quliyev bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərə sosia dəstək məqsədilə 17 qanuna əlavə və dəyişiklik edilib.

**O qeyd edib ki, 30 min bu kateqoriyadan olan şəxs qayğı ilə əhatə olunub. 1293 yaralı hərbiçi ziyarət edilib, onların zəruri ehtiyacları öyrənilib, 1200 müharibə əlilli 8830 reabilitasiya vasitələri ilə təmin edilib.**

M.Quliyev bildirib ki, bu qanun layihələri də bu siyasətin davamıdır. Hazırda qanuna edilən dəyişiklik ötən sessiyada "Məşğulluq haqqında qanuna" edilmiş dəyişikliyə uyğunluq xarakteri daşıyır və şəhid ailələrinin və qazilərin işlə təmin olunmasında onlara üstünlük verilməini nəzərdə tutur.

## Ermənistanın keçmiş müdafiə naziri həbs olunub

Tonoyanın vəkili onun təqsirsiz olduğunu qeyd edib



**Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan həbs olunub.**

Ermənistan mətbuatı xəbər verir ki, məhkəmə keçmiş nazirin iki aylıq həbsinə qərar verib. Tonoyanın vəkili onun təqsirsiz olduğunu qeyd edib. Qərarla bağlı apellyasiya şikayəti veriləcək. Keçmiş müdafiə nazirinin Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən 2011-ci ildə keyfiyyətsiz silah tədarükü ilə bağlı açılan cinayət işi çərçivəsində saxlanıldığı bildirilir.

## "Biz prosesləri izləyirik"



"İran rejimi ölkələrimizə qarşı təxribatla məşğuldur"

(səh.4)



# Fransa həmsədrlikdən uzaqlaşdırılmalıdır

## Millət vəkilləri Türkiyə və Pakistanın prosesə cəlb olunmasını faydalı sayırlar

**”Türkiyənin Azərbaycanın yanında olması qələbəmizdə öz müsbət rolunu oynadı”. Bu barədə Milli Məclisdə ”Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat Fəzail Ağamalı deyib.**

Millət vəkili vurğulayıb ki, ayrı-ayrı dövlətlər bizim əldə etdiyimiz qələbəni həzm edə bilmir. Azərbaycana qarşı təhdid və təzyiqlərin davam etdirirlər: ”Bizi təhdid edənlər arasında İran xüsusilə fərqlənir. İran beynəlxalq hüquq normalarını kobudcasına pozaraq bizim ərazimizdən keçərək erməni törtöküntülərinə yardımlar etməyə davam edir. Azərbaycan sərhədinin yaxınlığında bizə əzələ nümayiş etdirirlər. Azərbaycan İrana qarşı ən çətin anlarda öz dost dəstəyini nümayiş etdirib. ABŞ tərəfindən İrana qarşı Azərbaycan ərazisindən təzyiq göstərilməsinə Azərbaycan Prezidenti hər zaman qarşı olub. İranın fəaliyyəti bu gün islami dəyərlərə sığmır. İran bu əməllərindən əl çəkməli, Azərbaycanla münasibətlərinə ciddi korrektələr etməlidir. Azərbaycanın hansısa dövlətdən çəkinəcəyi hal yoxdur. Azərbaycan bu təhdidlərə cavab vermək əzmindədir”.

**“Artıq iki dövlət, bir ordu şəklində davam edirik”**

**Deputat Sahib Alıyev isə qeyd edib ki, indiki dövrün savaşı hibrid savaş olmaqla yanaşı, xüsusi təyinatlıların savaşıdır:** ”Biz artıq iki dövlət, bir ordu şəklində davam edirik. Bu təlimlər İranın əleyhinə yönəlməyib. Prezident İlham Əliyevin İranın Azərbaycan sərhədində keçirdiyi təlimlərlə bağlı fikrini yüksək qiymətləndirirəm”.

**“Minsk qrupunun həmsədrlərindən biri Türkiyə olmalıdır”**

**Millət vəkili Elman Nəsirov isə bildirib ki, Türkiyə və Azərbaycan arasında münasibətlər yüksək səviyyədədir:** ”Xüsusi təyinatlılar arasında münasibətlərin inkişafı ordunun inkişaf etdirilməsi mənafeyinə xidmət göstərir. Türkiyə artıq çox ciddi aktordur. Bunu bütün dünya da qəbul etməkdədir. Faktiki olaraq koma vəziyyətində olan ATƏT-in Minsk qrupuna yenidən can vermək istəyənlər var. Bu reallıq fonunda ABŞ-ın Ermənistandakı səfirinin açıqlamasını necə izah etmək olar? Türkiyə tənzimləmə prosesində iştirak etməlidir. Tənzimləmə prosesində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri Türkiyə olmalıdır. Fransa həmsədrlikdən uzaqlaşdırılmalıdır”.

**“Pakistan da bu prosesə cəlb edilə bilər”**

**Deputat bildirib ki, Türkiyə variantı alınmayacağı təqdirdə, Pakistanın bu prosesə cəlb edilməsi çox faydalı olar:** ”Onsuz da bu məsələnin həlli ilə məşğul olan Rusiya, ABŞ nüvə dövlətidir. Bu işlə nüvə dövlətləri məşğul olursa, Pakistan da bu prosesə cəlb edilə bilər. Çünki Pakistan da nüvə dövlətidir”.

İsmayıl

# Fazil Mustafanın təklifini partiyalar alqışlayır

## Müxalifət partiyalarının sədrləri qanun layihələrinin müzakirəsinə qatılmaq istəyir

İsmayıl Qocayev



**”Çox istərdim ki, büdcə müzakirələrində müxalifət partiyalarının iştirakına imkan yaradılsın”. Bu təkliflə parlamentin dünənki iclasında millət vəkili Fazil Mustafa çıxış edib. Deputat bildirib ki, belə bir imkan yaradılarsa, partiyalar büdcə ilə bağlı fikirlərini səsləndirə bilərlər:**

”Bütün müxalifət partiyalarının təmsilçilərinə büdcə ilə bağlı çıxış etmək imkanı yaradılmalıdır”. Xatırladaq ki, Milli Məclisin payız sessiyasında 2022-ci ilin dövlət büdcəsinin müzakirəsi aparılacaq. Deputatın təklifindən öncə də bir sıra partiyalar parlamentin iclaslarında, qanunların qəbul olunması prosesində iştirak etmək tələblərini bəyan etmişdilər. Partiya nümayəndələrinin fikrincə, ölkədə fəaliyyət göstərən siyasi təşkilatların qanunvericilik prosesinə cəlb olunması ictimai-siyasi fəallığın artırılması baxımından önəmlidir.

**Fazil Mustafanın təklifini ”Şərq”ə dəyərləndirən Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib ki, vaxtı ilə onlar da bu cür təkliflərlə çıxış ediblər.** Partiya rəhbərinin sözlərinə görə, ölkədə fəaliyyət göstərən siyasi qurumların ölkə həyatında daha fəal iştirakını təmin etmək lazımdır: ”Təklif etmişdik ki, qanun layihələrinin parlamentdə ilkin oxunuşu zamanı siyasi partiyalar da prosesə cəlb olunsun. İstənilən qanun layihəsi ictimaiyyət üçün açıq olmalıdır. Siyasi partiya təmsilçilərinə öz təkliflərini irəli sürmək imkanı yaradılmalıdır. Təbii ki, ən önəmli məqam partiyalar tərəfindən təklif edilən dəyişikliklərin dəyərləndirilməsi və nəzərə alınmasıdır. Təəssüflər olsun ki, xeyli əvvəl səsləndirdiyimiz təkliflərə məhəl qoyulmayıb. Axırıncı dəfə sentyabrın 9-da siyasi partiyaların sonuncu görüşündə təklifimizi gündəmə gətirmişik. Təkcə biz yox, bir sıra partiya rəhbərləri də qanun layihələrinin müzakirələrinə qatılmaq istədiklərini bəyan etmişdilər. Hesab edirik ki, siyasi partiyalar önəmli qanun layihələrinin, ölkə üçün taleyüklü məsələlərin müzakirələrində mütləq yer almalıdır. Xüsusən, büdcə müzakirələrinə cəlb olunmaq olduqca vacibdir. Büdcə dövlət və xalq üçün önəmli sayıldığına görə, müzakirələrə ayrılan vaxt da, toplantıda iştirak edənlərin sayı da kifayət qədər çox olmalıdır. Təşəkkür edirik ki, hörmətli Fazil bəy məsələni parlamentdə qaldırdı. Ümid edirik, reaksiya müsbət olacaq”.

# Millət vəkilinin çağırışı yerində səslənib

## “Dağlıq Qarabağ” qeyd-şərti ilə bağlı qoşulduğumuz bütün sənədlər dəyişdirilməlidir



**Parlamentin dünənki iclasında millət vəkili, İnsan Hüquqları Komitəsinin sədri Zahid Oruc önəmli təkliflə çıxış edib. Deputat bildirib ki, ”Böyük Qayıdış”a dair parlamentin də üzərinə böyük yük düşür. Z.Oruc təklif edib ki, ”Dağlıq Qarabağ” qeyd-şərti ilə bağlı qoşulduğumuz bütün sənədlər dəyişdirilməlidir:**

”Bizim qanunvericilik aktlarında ”Dağlıq Qarabağ”la bağlı qeyd olan onlarla sənəd var. Təklif edirəm ki, parlamentdə bununla bağlı İşçi Qrup yaradılsın və Dağlıq Qarabağ qeyd-şərti ilə bağlı qoşulduğumuz bütün beynəlxalq sənədlər dəyişdirilsin”.

**Parlament üzvünün təklifini ”Şərq”ə təhlil edən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli də bunun olduqca mühüm məqam olduğunu deyib.** Siyasi şərhçi bildirib ki, ”Dağlıq” ifadəsi coğrafi baxımdan bölgənin dağlıq zona olduğunu əks etdirmək üçün Qarabağ sözünün əvvəlinə əlavə edilmişdi. Ancaq təəssüflər olsun ki, erməni tərəfi bu ifadədən siyasi və etnik məqsədlər naminə sui-istifadə etməyə başladı: ”Ermənilər dünya siyasi ədəbiyyatında qondarma rejimin adına da bu termini əlavə etdilər. Prezident İlham Əliyev ”Dağlıq Qarabağ” yoxdur, ”status məsələsi bitdi” deyəndə məhz bunları nəzərdə tuturdu. Yəqin ki, müəyyən qanunvericilik aktlarında özümüz də səhvlərə yol vermişik. Hesab edirəm, bu cür ifadələri ”Yuxarı Qarabağ” anlayışı ilə əvəzləmək mümkündür. Azərbaycanın tərkibində Qarabağ iqtisadi rayonunun yaradılması qanunvericilik sənədlərinin dilini dəyişmək zərurətini ortaya çıxardı. İlk növbədə bu dəyişiklik siyasi-coğrafi adla, ikincisi, hüquqi baxımdan, üçüncüsü isə dünyada baş verən proseslər və diplomatik yanaşma ilə bağlıdır. Bu məqamın qanunvericilikdə əksini tapması Prezidentin çağırışına uyğundur”.

İsmayıl Qocayev



# Putin də Türkiyəyə dəvət aldı

## Liderlərin təmasları daha da artacaq

**Rusiya Prezidenti Vladimir Putin Türkiyəyə səfər edəcək. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı V.Putin ilə görüşdən qayıdarkən jurnalistlərə açıqlamasında bildirib. R.T.Ərdoğan görüşdə səfərinə qarşılıq olaraq V.Putinin də Türkiyəyə səfər etməsini istədiyini və bu təkliflə müsbət cavab aldığını vurğulayıb:**

”Bundan başqa, ilin sonuna qədər Türkiyədə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının keçirilməsini təklif etdim və buna da müsbət cavab verdi”.

**Putinin gözlənilən Türkiyə səfərini ”Şərq”ə şərh edən politoloq Natiq Miri qeyd edib ki, bir görüşdə bütün məsələlərin həll olunması mümkün deyil:**

”Hətta razılaşdırılmış məqamlar var ki, bunlar müəyyən qədər zaman alır. Düşünürəm ki, Rusiya prezidentinin Türkiyəyə dəvət olunması razılaşdırılmış məqamların icrası, həyata keçirilməsi və irəliyə aparılması üçündür. Bəzən dövlət strukturları arasında müəyyən məsələlər bilərəkdən, qəsdən ləngidilir, yaxud da sabotaj edilir. Çünki dövlət hakimiyyətində müxtəlif şəbəkələrin maraqlarını təmin edən insanlar olur. Eyni zamanda Rusiyada güclü erməni lobbisi mövcuddur. Hər zaman müxtəlif strukturlarda Türkiyəyə qarşı özlərinin mövqelərini ortaya qoymaqla prosesləri sabotaj edirlər. Fikir verdinizsə, danışıqlardan sonra hər iki prezident otaqdan çıxarkən Putin söylədi ki, tez-tez əlaqə saxlayaq, yəni təmasda olaq. Bütün bunlar razılaşdırılmış məsələlərin prezident səviyyəsində nəzarətdə və diqqətdə olması üçündür. Yalnız belə olduğu təqdirdə bu məqamlardan imtina etmək mümkün olmur. Putinin Türkiyəyə dəvət olunması da təxminən bu kontekstdədir və düşünürəm ki, bu, müsbət hadisədir”.

**Ekspert onu da əlavə edib ki, bir çox məsələlərdə Rusiya və Türkiyənin geosiyasi maraqları uzlaşmasa da, iki ölkənin prezidenti qarşılıqlı etimad yaradıblar:**

”Görüşəndə bütün problemlərə baxmayaraq, ortaq razılaşdırılmış məqamlar üzərindən müəyyən anlaşmalara gedə bilirlər. Bilirsiniz ki, Suriya İdlib məsələsində razılaşmaq olub. İdlibdə ”Təhrir əş-Şam” terror qruplaşmasının zərərsizləşdirilməsi ilə yanaşı, Rusiyanın PKK və onun Suriya qolu PYD-nin cənuba doğru Türkiyə sərhədindən 30 kilometr geriyə çəkilməsini təmin etmək kimi öhdəlikləri var. Bu gün Rusiya ittiham edir ki, Türkiyə verdiyi sözü tutmur, İdlibdə olan ”Təhrir əş-Şam” qruplaşmasını zərərsizləşdirmir. Bunun qarşılığında PKK ilə bağlı Rusiya öhdəlikləri üzərinə götürüb. Lakin hələ də onun minlərlə PKK və Suriya qolunda olan terrorçular Menbiçdə və o əhatədə qalmaqda davam edirlər. Hətta onlara Rusiya PKK-çıları adı da verilib. Bu kontekstdə müəyyən razılaşmalar olub, həyata keçirilməsi üçün zaman və nəzarətə ehtiyac duyulur.

**Ərdoğanla Putin birgə yola çıxıblar, həll olunası ciddi məsələlər var**

Həmçinin Qarabağla bağlı razılaşmaları da qeyd etməliyik. Biz bunu Rusiya prezidentinin Türkiyənin Qarabağda sabitləşdirici güc olduğunu etiraf etməsində də gördük. Bu çox önəmli bir açıqlamadır. Əslində Putinin Türkiyənin Azərbaycanda həlledici geosiyasi amil olduğunu qəbul etdiyini göstərir. Artıq Azərbaycan-Ermənistan məsələsini bütövlükdə bu iki güc həll edə bilər. ATƏT-in Minsk qrupunun digər həmsədrlərinin regiona yenidən gəlməsinə, yaxud da İranın Azərbaycanla sərhəddə atılıb-düşməsinə rəğmən Putin Qarabağdakı əsas faktorun Rusiya ilə Türkiyə olduğunu dedi. Kommunikasiyaların açılmasından tutmuş, erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmasına, ermənilərin yaşadıqları ərazilərdə Azərbaycanın suveren hüquqlarının tam bərpasına qədər məsələlər müzakirə olunub. Bütün problemlərin həlli üçün zaman-zaman bu cür görüşlərə ehtiyac var”.

Samirə Ərəblinski

# Vaxt azalır

## İbrahim Kalının söylədikləri Ermənistana mesajdır



**Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın ”Haber Global”a müsahibəsində bildirib ki, Ermənistan sadəcə bir Ermənistandan ibarət deyil. O bildirib ki, Ermənistan yoxsul bir ölkədir:**

”Azərbaycan və Türkiyənin iqtisadiyyatı var. Onlar bundan faydalana bilərlər. Qarabağ məsələsində həll edilməsi mövzular var. Üçtərəfli bəyanat imzalanıb, ancaq sülh müqaviləsi bağlanmayıb. İki tərəfin də təsdiqləyəcəyi şərtlər müzakirə ediləcək. Bu proses davam edir. Ermənistan sadəcə Ermənistandan ibarət deyil. Başqa bir tərəf də var. Ancaq bu anlaşma Ermənistanın lehinə olar”.

**İbrahim Kalının Ermənistana mesaj verdiyini deyən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu ”Şərq”ə bildirib ki, İravanda müxtəlif siyasi qruplar var:** ”Məsələn, Paşinyan və onun tərəfdarları sözdə Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasını səsləndirirlər, digər qrup olan ”Qarabağ klanı” isə Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyindən çıxış edir, daha çox Rusiyaya meyillənirlər. Eyni zamanda Ermənistanda qərblə sıx əməkdaşlıq edən qruplaşma da var. Onlar Rusiyaya düşmən münasibət bəsləyirlər. Ola bilsin ki, Kalın bu qrupların bir-biri ilə olan mübarizəsini də nəzərdə tutur. O, həm də buna işarə edir ki, əslində Azərbaycan və Türkiyə ilə sülh əldə etmək Ermənistanın maraqlarına cavab verir. Ona görə mesaj göndərir ki, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyirlərsə, vaxtlar azdır və hərəkətə keçmək lazımdır. Bir sözlə, Kalının dedikləri Ermənistana siyasi bir mesajdır”.

Yeganə Bayramova

# "Füzuli var, Xankəndi aeroportu da olacaq"

## Əziz Əlibəyli: “Hökumət hazırda heç bir mənasız və rentabelsiz layihəyə imza atmaz”



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak edəcək. Bu barədə ”Haber Global”a müsahibəsində Türkiyə Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın bildirib.**

”Füzulidəki hava limanı tamamlanmaq üzrədir. Bu yaxınlarda onun açılışı da keçiriləcək. Həmin açılışa prezidentimiz də qatılacaq” - deyə İ.Kalın bildirib.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bu barədə ”Şərq”ə danışıb:** ”Füzuli Hava Limanı tikiləndə xeyli dostlar etiraz edirdilər ki, kimə və nəyə lazımdır? Halbuki, Azərbaycan təkcə Füzulidə deyil, Laçında və Zəngilanda da aeroport açmağa hazırlaşır. Bonus isə İATA kodu alacaq, Xankəndi (Xocalı) aeroportu da olacaq.

Ümumiyyətlə, hökumət hazırda heç bir mənasız və rentabelsiz layihəyə imza atmaz. Müqayisə üçün deyim ki, Ələt iqtisadi zonası nə qədər strateji layihədirsə, aeroportlar da o qədər vacibdir.

Bakıdan Füzuliyə cəmi 30 dəqiqəyə uçursan və ya təchiz edirsən, eyni qaydalar Zəngilan, Laçın üçün də keçərlidirsə, sərhədə doğru dislokasiyanı rəqiblər günlərlə sürən ağır kolonların hərəkəti ilə icra edəndə, biz maksimum bir saata bölgədə müdafiəmizi qurub gözləyəcəyik.

Ərdoğanın Füzuli hava limanının açılışına gəlməyi o deməkdir ki, aeroportlar təkcə Bakıdan Füzuliyə sərnişin uçuşu üçün tikilmir, regional hərbi gücün adil təntənəsindən ötrü lazımdır və diktə zamanı gərəyimiz olacaq”.

Kənan



# Soçi görüşü Bakının maraqlarına uyğun keçib

*Ehtimal olunur ki, Türkiyə Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi prosesinə də qatılsın*

İsmayıl Qocayev

**Kremlin mətbuat katibi Dmitri Peskov Rusiya və Türkiyə prezidentlərinin Soçidə baş tutan danışıqlarının təfərrüatlarını açıqlayıb. Peskov Vladimir Putin və Rəcəb Tayyip Ərdoğan görüşünün konstruktiv keçdiyini, iki ölkə üçün vaxtında, lazımlı və faydalı təmaslar olduğunu bildirib. Onun sözlərinə görə, Putin-Ərdoğan danışıqlarında əsas söhbət ilk növbədə ikitərəfli münasibətlərdən gedib:**

"Putin Rusiya mallarına Türkiyədə tətbiq olunan məhdudlaşdırmalar mövzusunu qaldırıb. İqtisadiyyatda qarşılıqlı məhdudlaşdırmaların saxlanılmasına diqqət yönəldilib. Bu məhdudlaşdırmalar, məsələn, Türkiyədə Rusiyanın metallurgiya və digər məhsullarına tətbiq edilən əlavə idxal rüsumlarıdır. Bundan başqa, liderlər kosmik sahədə əməkdaşlığı, türkiyəli kosmonavtın uçuşa hazırlığını müzakirə ediblər". Peskov Rusiya və Türkiyə liderlərinin Soçi görüşündə Suriya böhranını detallı müzakirə etdiklərini söyləyib: "Regional münaqişələr də liderlərin gündəliyində idi. Suriya ilə bağlı detallı fikir mübadiləsi aparıldı. Əfqanıstan və Liviya barədə də danışıldı. Prezidentlər İdlibdən terrorçuluq elementlərinin çıxarılması daxil olmaqla Suriya ilə bağlı əvvəlki razılaşmalara sadiq olduqlarını ifadə etdilər. Təəssüflər olsun ki, burada mən detallara girə bilmirəm, bu barədə tam məlumatlara malik deyiləm". Kremlin sözçüsü Putin və Ərdoğanın iki ölkə arasında hərbi-texniki əməkdaşlığı, o cümlədən S-400 zenit raket komplekslərinin göndərilməsini və S-400-lərin bir sıra hissələrinin Türkiyə ərazisində istehsalı imkanlarını da müzakirə etdiyini deyib: "Prezidentlər aviasiya sahəsində də əməkdaşlığın mümkünlüyünü müzakirə ediblər. Bilirsiniz ki, ABŞ Türkiyəni F-35 proqramından çıxarıb".

Türkiyə və Rusiya prezidentləri arasında Soçidə başa çatan 3 saatlıq görüş ətrafında müzakirələr davam edir. Təbii ki, bizim üçün bu görüşün əsas əhəmiyyət kəsb edən məqamı Qarabağ mövzusudur. Ərdoğan-Putin görüşündə Qarabağ məsələsindən də danışılıb. Vladimir Putin görüşün mətbuat üçün açıq hissəsində Türkiyənin Qarabağ məsələsində müsbət roluna bu cümlə ilə işarə edib: "Qarabağdakı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi aktiv şəkildə fəaliyyət göstərir və bölgədə sabitlik üçün ciddi zəmanətdir". Kreml rəhbəri ikili əməkdaşlığı sabitliyin ciddi təminatı adlandırıb.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Ərdoğanın Soçi səfərindən əvvəl müsbət mesajları, Ankara-Vaşinqton xəttində narazılıqlar, Türkiyə-Rusiya arasında yeni S-400 razılaşmasının mümkünlüyü və s. tərəflərin razılaşma modunda olduğu ehtimalını önə çıxarır.** Analitikə görə, liderlərin qapalı müzakirədən öncə açıqlamalarında Qarabağla bağlı da danışması bu məsələnin gündəm mövzularından olduğunu deməyə əsas verir: "Görüşdə bizim maraqlarımız fonunda diqqətçəkən məqam Putinin Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Azərbaycan-Ermənistan sərhədində atəşkəsə nəzarətdə də fəal iştirakına dair dedikləridir. Bunu Rusiyanın Qarabağda tərəf kimi qəbul etdiyi Türkiyəni Azərbaycan-Ermənistan sərhəd məsələsində də tərəf gördüyü kimi şərh etmək olar. Bu, iki kontekstdə Bakının maraqlarına uyğundur. Birincisi, Türkiyənin bölgədə Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığının qarantı olduğunu Rusiya qəbul edir. Bu, Moskvanı mümkün təhdidlərdən çəkindirən amildir. İstisna deyil ki, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Azərbaycan-Ermənistan sərhədində də atəşkəsə nəzarət prosesinə qoşulması Şuşa Bəyannaməsi imzalanmasından sonra Moskvanın qarşısında qaldırılıb və qəbul etdirilib. Azərbaycan-Ermənistan sərhədində atəşkəsə nəzarətdə iştirak edən Türkiyə sərhədin demarkasiya və delimitasiyası, eləcə də sərhəd müqaviləsinin imzalanması prosesində də iştirak edə bilər".

# İran ciddi əndişədədir

## Sərhədlərimizdə quru qoşunların təlimi başlayır

**İran Silahlı Qüvvələrinin quru qoşunları ölkənin şimal-qərb bölgəsində təlimlərə başlayacaq. Bu barədə İran Quru Qoşunlarının komandanı, general Kyumərs Heydəri bildirib. Onun sözlərinə görə, "Fatihan Xeybər" adlı təlimlərdə toplar, pilotsuz uçuş təyyarələri, helikopterlər və zirehli texnikalardan istifadə olunacaq.**

Heydəri deyib ki, hərbi təlimlərin keçirilməsində məqsəd bölgədə İran ordusunun hərbi gücünün artırılmasıdır. O qeyd edib ki, İran Silahlı Qüvvələri ölkənin müxtəlif bölgələrində xüsusi proqram əsasında məlum təqvimlərdə təlimlər keçirir. Təlimlərin neçə gün davam edəcəyi qeyd olunmayıb. Qeyd edək ki, İranın şimal-qərb bölgəsi Ərdəbil, Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Zəncan əyalətlərini əhatə edir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, hərbi təlimlərin İran-Azərbaycan münasibətlərində soyuqluğun yaşandığı bir dövrdə keçirilməsi və təlimlərə "Xeybəri fəth edənlər" adının verilməsi heç də təsadüfi deyil.** Analitik bir müddət əvvəl İran XİN başçısı Səid Xətibzadənin açıqlamasına diqqət çəkib: "Xətibzadə deyib ki, "İran sərhədləri yaxınlığında sionist rejimin varlığına dözməyəcək və təhlükəsizlik tədbiri olaraq lazım bildiyi hər şeyi edəcək". Mahiyyət etibarilə bu, çox ciddi və bir o qədər də təhlükəli açıqlamadır. Hərbi təlimə "Xeybəri fəth edənlər" adının verilməsi də ciddi məqamdır. Məsələ ondadır ki, Xeybər Səudiyyə Ərəbistanının Mədinə şəhərinin şimalında yerləşən bir ərazidir. VI-VII əsrlərdə bu ərazidə Qüdsdən qovulan yəhudilər yaşayıblar. Həmin yəhudilər uzun müddət Məhəmməd peyğəmbərə qarşı ətrafdakı tayfalardan ibarət koalisiya yaradıblar. 628-ci ildə Xeybərə hücum edilib və koalisiya məğlub olub. Buradan çıxan nəticə belədir ki, İran üçün Azərbaycan 21-ci əsrin "Xeybər qalası"dır. Təlimlə bağlı digər diqqət çəkən məqam zirehli texnika, artilleriya, PUA-lar və radioelektron mübarizə vasitələrinin istifadə ediləcəyidir. Xüsusilə təlimlərə PUA-ların cəlb edilməsi rəsmi Bakıya verilən növbəti mesajdır. 44 günlük müharibə zamanı müharibənin taleyini böyük ölçüdə həll edən İsrail istehsalı "Harop" və Türkiyə istehsalı "Bayraktar" PUA-larının əhəmiyyətini İran yaxşı bilir. Təlimlərə PUA-ları cəlb edərək rəsmi Bakıya qarşısındakı ölkənin zəif Ermənistan deyil, İran olduğu mesajını verməyə çalışır".

**T.Rzayev bəyan edib ki, rəsmi Tehran Azərbaycanın xarici siyasətindən və regionda baş verən dəyişikliklərdən ciddi narahatdır:** "Bu mənada düşünürəm, "Xeybəri fəth edənlər" təlimi təkcə hərbi təlim olmayacaq. İran təlimləri bahanə edərək şimal-qərb bölgəsi Güney Azərbaycanı - Ərdəbil, Zəncan, Şərqi və Qərbi Azərbaycan ostanlıqlarında fəallara qarşı təmizləmə əməliyyatı keçirəcək. Həm də bu təlimlər zamanı ölkə daxilindəki İran meyilli qüvvələr aktivləşəcək. Mahiyyət etibarilə proses artıq başlayıb. Anım Günü tədbirlərindən birinə qatılan bir qrup çadralı qadının İsrail əleyhinə şüarlar səsləndirməsi və sosial şəbəkə üzərindən müxtəlif növ çağırışların edilməsi bunu bir daha təsdiqləyir. İran təlimlərlə rəsmi Bakıya gözdağı verməyə, faktiki olaraq öz hərbi qüdrətini göstərərək İsrail-Azərbaycan münasibətlərindən çəkindirməyə səsləyir".



"Hərbi təlimə "Xeybəri fəth edənlər" adının verilməsi ciddi məqamdır"

İsmayıl Qocayev



# Paşinyan əhalini sülhə hazırlayır

Baş nazir mesaj verir ki, Azərbaycan-Türkiyə-Ermənistan münasibətləri gec-tez normallaşacaq

**Ermənistanın Baş naziri Nikol Paşinyan bildirib ki, 44 günlük müharibə nəticəsində Ermənistan iqtisadiyyatı və sosial həyatında yaranan faciəli vəziyyət hələ aradan qalxmayıb. Baş nazir bu barədə sentyabrın 30-da dövlət büdcəsinin müzakirəsi zamanı açıqlama verib.**

O, 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkiləri ilə daxili siyasi böhranın aradan qalxdığını söyləyib:

"Təhlükəsizliyə böyük diqqət yetirəcəyik. Çünki onsuz uzunmüddətli inkişaf məqsədlərinə çatmaq mümkün deyil. Bu mənada təkcə ordunun, müdafiə qabiliyyətinin modernləşdirilməsi deyil, həm də Ermənistan ətrafında əlverişli xarici mühitin yaradılması, Ermənistan, Qarabağ və region üçün dinc inkişaf dövrünün açılması gündəminin ardıcıl şəkildə həyata keçirilməsi lazımdır".

**Paşinyanın söylədiklərinə dair fikirlərini "Şərq"lə bölüşən REAL Partiyasının icraçı katibi, iqtisadçı Natiq Cəfərli bildirib ki, baş nazirin bu açıqlaması əslində Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, iqtisadi və logistik əlaqələrin gücləndirilməsi və digər məsələlərə bağlı Ermənistanda ictimai rəyi formalaşdırmaq üçün nəzərdə tutulub:** "Həqiqətən də hazırda Ermənistanda ağır iqtisadi durum var. Bu vəziyyətin aradan qaldırılması yollarından biri qonşu dövlətlərlə normal münasibətlərin qurulması, iqtisadi logistik əlaqələrin genişləndirilməsi və sərhədlərin açılmasıdır. Ona görə də Paşinyanın bu açıqlaması ictimai rəyi gələcəkdə baş verə biləcək hadisələrə və Azərbaycan-Türkiyə-Ermənistan münasibətlərinin normallaşmağa doğru getməsi üçün əhalini hazırlamaq məqsədi güdür".

**Yeganə Bayramova**

# Geyim sonranın işidir

Aynurə Pənahqızı

**Ötən gün Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında maraqlı təkliflə çıxış edib. O bildirib ki, din xadimlərinin geyimlərinin dəyişdirilməli, dini rütbələr müəyyən edilməlidir.**

*Təklifə münasibət bildirən ilahiyyatçı Tural İrfan "Şərq"ə açıqlamasında bildirib ki, öncə Azərbaycanda din xadimlərinin beyni dəyişdirilməlidir. Çünki bizim ruhanilərin əksəriyyəti İranın siyasi-dini rəhbərliyinə müctəhid adı ilə təqlid edirlər və bunu da gizlətmirlər:* "Məlumdur ki, İran da Ermənistana yaxın dövlətdir və Azərbaycan maraqlarına zidd davranış sərgiləyir. İran teokratik dövlətdir və oradakı din adamları eyni zamanda oranın siyasi rəhbərləridir. Bizim axundların onlara siyasi, dini, mənəvi bağlılığı çox təhlükəlidir. İran bizim axundların əli ilə din, şiəlik adı altında ölkəmizdə öz məram və maraqlarını təbliğ etdirir. Xurafat vasitəsi ilə öncə inanclı insanları istismar edir, sonra da onlardan istifadə edərək öz içimizdən özümüzə qarşı siyasi riçaqlar düzəldir. Keçən günlərdə şəhid məzarı başında İsrail əleyhinə, dövlətimiz əleyhinə çıxışlar edən hicablı qadınlar da məhz bunun nəticəsində baş verir. Qafqaz Müsəlmanları İdarəsi də təəssüf olsun ki, belə məsələlərə ya göz yumur, ya da özü şərait yaradır. Geyim sonranın işidir. İkincisi də geyim məsələsi bir neçə il əvvəl müzakirə olunub və standart forma müəyyən edilib. Əslində islam dininə görə din adamının xüsusi geyimi nəzərdə tutulmayıb. Hər kəs öz dövrünə uyğun geyinə bilər. Lakin istismarçı ruhani təbəqəsi özləri üçün xüsusi imtiyaz, müstəsna hüquq, xalqdan seçilmək amalı ilə özlərinə xüsusi geyim uydurublar. Bu, xristianlıqdan keçib. Əgər geyinmək, fərqlənmək istəsələr belə bu milli geyimlərə uyğun olmalıdır. Çünki bəzən bu geyimlər də İran kimi məkrli ölkələrdə siyasi mesaj, xüsusi mahiyyət daşıyır. Məsələn, qara əmmamə guya seyid olmağı bildirir. Bir tərəfi ağ əmmamə sünniliyi, tam bağlanmış əmmamə şiəliyi bildirir. Bəzi əbalar İran ruhanisi olmağı ifadə edir və s. Ölkəmizdə də dini təbliğat əsasən İran təbliğatı üzərində aparıldığı üçün axundlar, ruhanilər o üslubda geyinməyi özləri üçün fəxr hesab edirlər. Əgər dini, xüsusi geyim gərəkdirsə, (hərçənd ki, dində belə bir tələb yoxdur) öz milli geyimlərimizə uyğun geyim hazırlanmalıdır və bu geyim hazırlanarkən İranın tələb etdiyi kimi məzhəb ayrı-seçkiliyi, nəsil-soy ayrı-seçkiliyi olmamalıdır. Yəni bu seyiddir qara əmmamə geyinsin, bu seyid deyil, ağ əmmamə geyinsin kimi fikirlər olmamalıdır".

**İlahiyyatçı-alim Hacı Atif İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, din xadimlərinin rütbələri və yaxud da geyimləri deyil, onların bilik səviyyələri yoxlanılmalıdır. Çünki din ideologiyadır və o, geyimlərdən, eyni zamanda rütbələrdən daha önəmlidir:** "Azərbaycanda dini camiyyədə dini təbliğ edən insanların rütbələrdən öncə mənəviyyatına və savadına diqqət yetirmək lazımdır. Savadlı, mənəviyyatı yüksək olan kadrları müəyyən edib onları dinin təşviqi üçün, dinin maariflənmə işlərinin aparılması üçün təyin edilməlidir. Məsələn, "molla" sözünün özü həddən artıq dəyərlidir və böyük anlama malikdir. Ancaq əfsuslar olsun ki, sovet dövründə molla Yasin, Quran və yaxud kəbin, dəfn bu kimi şeylərin icrası üçün isifadə olunduğuna görə, sonda bu söz insanlar arasında çox kiçik bir mənaya çevrildi. Bu gün din xadimlərinin geyimlərinin dəyişdirilməsi deyil, din xadimlərinin təfəkkürlərinin, mənəviyyatının ali olması, yüksək biliyə, savada malik olması üzərində addımlar atmalıyıq. Bir neçə il bundan öncə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə təyin olunmuş camilərdə, məscidlərdə axund və imamlara standart bir libasın geyinilməsi təqdim olundu. Amma bu demək deyil ki, insanlar hər hansı mənəvi sahədə, mənəvi formada hər hansı bir standart geyimə məhkum edilsin. Bəli, insanlar bu məsələdə azaddır. Libasların dəyişilməsi, dini rütbələrin müəyyən edilməsi əsas və zəruri işlərdən deyil. Əsas məsələ odur ki, dinə uyğun və istənilən formada hər bir iş həyata keçirilsin. Azərbaycanın özünəməxsus milli geyimləri var və o, milli geyimləri qorumaq hər bir vətəndaşımızın borcudur. Dinin özünəməxsus mənəvi libaslarına da hörmət etmək labüddür. Bir məsələni qeyd edim ki, əba və qəba kimi geyimlər peyğəmbərimizin libası kimi təqdim olunur. Bunun ərəblərlə heç bir aidiyyəti yoxdur. Peyğəmbər sırf ərəblər üçün gəlməmişdi, bütün dini camiyə üçün gəlmişdi".





**Tural İrfan:** *"Öncə Azərbaycanda din xadimlərinin beyni dəyişdirilməlidir"*

**Atif İsmayılov:** "Din xadimlərinin rütbələri və yaxud da geyimləri deyil, onların bilik səviyyələri yoxlanılmalıdır"

# Yoxsulluq, ümidsizlik Gürcüstanı yorub

## Xalq bu dəfə Saakaşvilinin qayıdışına yaşıl işıq yandıra bilər

Aynurə Pənahqızı

**"Payızda Gürcüstana qayıdacağam". Bunu Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili deyib. Saakaşvili bildirib ki, Gürcüstan xalqı yoxsulluğu aradan qaldırmaq və layiqli həyat istəyir:**

"Xalq bataqlıqda, yoxsulluqda, ümidsiz vəziyyətdə yaşamaqdan yorulub, insanlara verilən yeganə perspektiv ölkədən qovulmaqdır. Bu seçkilər yenə də keçiriləcək, millət və tarix qarşısındakı borcumu yerinə yetirəcəyəm, bu dəfə referendumdan əvvəl Gürcüstana gələcəyəm. İvanişvili bu dəfə gürcü xalqını tapdalaya bilməyəcək, hakimiyyəti bitdi". Maraqlıdır, Mixail Saakaşvilinin hakimiyyətə gəlməsini kimlər istəyir?

**Saakaşvilinin hakimiyyətə gəlməsində maraqlı qüvvələrin olduğunu deyən politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, Gürcüstan Qafqazda Rusiya tərəfindən təklənir. Politoloq qeyd edib ki, Ermənistan isə bütün hallarda Rusiyanın Qafqazda vuran, xəyanətkar əlidir:** "Onlar çalışırlar ki, Gürcüstanda da qüvvələrin tarazlığını yaratsınlar. Daha doğrusu, İvanişvilinin əliylə Rusiya Gürcüstanı özünə 50 faiz tabe etdirə bilmişdi. Ümumiyyətlə, Gürcüstanda iqtidar-müxalifət bərabərliyi var. Bundan da Qərb yararlanmaq istəyir, xüsusən də Saakaşvili vasitəsilə. Həmçinin, Saakaşvilinin Rusiyaya qarşı həddən çox sərt mövqedə durması həm Qərbə, həm Ukranaya, həm də ABŞ-a sərf edir. Ona görə də onu yenidən hakimiyyətə qaytarmaq istəyirlər. Bir faktı da qeyd edim ki, orda yaşayan azərbaycanlılar daha çox Saakaşvilini müdafiə edirlər, yeni burda onun əsas bazası Azərbaycan diasporasıdır. Bilirsiniz ki, rəsmi etiraf eləməsələr də orda 500 mindən çox azərbaycanlı yaşayır. Gürcüstanda hazırda Saakaşvilini istəyənlə istəməyən qüvvələr bərabərdir. Gürcüstanda müəyyən gərginlik və narazıçılıq olduğuna görə daha çox Saakaşvilini istəyirlər. Azərbaycanlılar da bu işə Gürcüstan vətəndaşı kimi siyasi qərar verə bilərlər".



# Yenə Ərdoğan gəlir, yenə Qarabağa gəlir



## Füzuli Hava Limanının açılışı Ermənistana gözdağı olacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfər edəcək. Bu barədə Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın "Haber Global"a müsahibəsində bildirib. Onun sözlərinə görə, səfər çərçivəsində Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak edəcək.**

*Ərdoğanın Azərbaycana səfərinə münasibət bildirən siyasi-şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikilməsinin iqtisadi məqsədləri ilə yanaşı təhlükəsizlik üçün də böyük əhəmiyyəti var:* "Fikir verirsinizsə, postkonflikt dövründə məhz hava limanlarının tikilməsi ön plana çıxarıldı. Bununla da, ilk olaraq hava məkanına təhdidlər aradan qalxdı. Çünki hava limanları həm də təhlükəsizlik üçün beynəlxalq qarantın bir elementidir. İkincisi, bu hava limanlarından hərbi məqsədlər, daha dəqiq ifadə etsək, hərbi yük daşımaları həyata keçirmək üçün istifadəsi gözlənilir. Üçüncüsü, ermənilərin, Rusiyanın Xankəndi hava limanını "kozır" kimi istifadə etməsinin qarşısını alır. Onsuz da Xankəndi hava limanının beynəlxalq tanınması yoxdur. Azərbaycan hələ işğal müddətində ora sərnişin daşınmasının qarşısını almaq üçün xəbərdarlıqlar etmişdi".

**Rəcəb Tayyib Ərdoğanın Füzuli hava limanının açılışında iştirakına gəlincə, analitik hesab edir ki, Ərdoğan bununla Qarabağdakı layihələrin təhlükəsizliyinin qarantının həm də Türkiyə olduğuna mesaj verir:** "Ümumiyyətlə, Ərdoğan Qarabağa gedib, əvvəllər də bu mesaj verilib. Elə Şuşa Bəyannaməsinin Şuşada imzalanması da təsadüfi deyildi. Ankara bununla dünya güclərinə ismarıc verdi ki, Qarabağda var və iştirakını artıracaq. Soçidə cənab Ərdoğanın Rusiya lideri Vladimir Putinlə görüşündə də Ankaranın Qarabağdakı iştirakını genişlətməsinə dair razılığın əldə olunması ehtimal edilir. Təsadüfi deyil ki, Putin Ağdamdakı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətindən danışarkən onun fəaliyyət istiqamətini həm də Qarabağdakı Azərbaycan-Ermənistan sərhədinin üzərinə proyeksiya edib. Ərdoğanın Soçi səfərindən sonra Füzuli Hava Limanının açılışında iştirak etmək üçün Azərbayana gəlişi də diqqət çəkir. Belə ki, Türkiyə Rusiyadakı "paketi" Azərbaycan tərəfinə çatdıracaq və Ankara-Bakı müştərək maraqları ilə uzlaşdırılması üçün müzakirələr aparacaq".

> *"Türkiyə Rusiyadakı "paketi" Azərbaycan tərəfinə çatdıracaq və Ankara-Bakı müştərək maraqları ilə uzlaşdırılması üçün müzakirələr aparacaq"*

**Aynurə Pənahqızı**



**Arye Qut:** "İran Azərbaycanla İsrailin münasibətlərinə zərər vura bilməz"

# "Biz prosesləri izləyirik"

## "İran rejimi ölkələrimizə qarşı təxribatla məşğuldur"

**"İran uzun illərdir Azərbaycana qarşı siyasət yeridir və bu siyasət özünü Ermənistan-İran strateji əlaqələrində daha qabarıq göstərir". Bu barədə "Şərq"ə "İsraildə Azərbaycan evi"nin icraçı direktoru, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, siyasi icmalçı Arye Qut deyib.**

Ekspert bildirib ki, müsəlman ölkəsi olan İran İkinci Qarabağ müharibəsi zamanı Ermənistan adlı dövlətə silah-sursat, benzin, ərzaq göndərib: "Bunun özü Azərbaycana vurulan böyük zərbədir. Əslində İranın Ermənistana dəstəyi yeni hadisə deyil və illərdir davam edir. Dövlət başçısı İlham Əliyev də vurğuladı ki, bizim dronlarımız, kameralarımız İranın bütün addımlarını, qanunsuz yük daşımalarını qeydə alıblar. Yəni kimin kim olduğu hamıya bəllidir. Fakt odur ki, ötən 30 il ərzində İran tərəfi sərhədlərimiz yaxınlığında heç bir hərbi təlim keçirməyib. İndi geo-siyasətlə bağlı maraqlı situasiya yaranıb. Azərbaycan Zəngəzur dəhlizinin açılması istiqamətində ciddi çalışmalar həyata keçirir. Həmçinin, bütün regional ölkələri bölgədə birgə əməkdaşlığa səsləyir. İran tərəfi açıq-aşkar hərbi təlimlər keçirməklə Azərbaycana güc göstərmək istəyir. Amma Tehran başa düşmür ki, Azərbaycan 1990-cı illərin ölkəsi deyil. Bu gün Azərbaycan öz geosiyasəti və geoiqtisadiyyatı olan bir dövlətdir. Cənubi Qafqazda Azərbaycansız heç bir proyekti həyata keçirmək mümkün deyil".

**Arye Qut vurğulayıb ki, İranın istəyindən asılı olmayaraq, İsrail-Azərbaycan əlaqələri hər zaman ən yüksək səviyyədə olub:** "Azərbaycanla İsrail arasında çox gözəl hərbi-siyasi, diplomatik və iqtisadi əlaqələr mövcuddur. İran rejimi iki dost ölkənin münasibətlərinə zərər vura bilməz. Azərbaycan İsrail üçün strateji əhəmiyyətə malik ölkədir. İsraildə yaşayan 80 minlik azərbaycanlılar və Azərbaycanda yaşayan 25-30 minlik yəhudi diasporası iki ölkənin əməkdaşlığına hər zaman dəstək ifadə ediblər. Azərbaycan diasporası olaraq həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönündə ciddi səy göstəririk. Bugünlərdə İsrailin ən böyük qəzeti olan "İsrail HaYom" mətbu orqanında Azərbaycan-İsrail münasibətləri, Qarabağ müharibəsindəki möhtəşəm qələbəmiz, Anım günü ilə bağlı ardıcıl məqalələr dərc olundu. İran isə hər iki ölkəyə qarşı provokasiya ilə məşğuldur. Biz prosesləri izləyirik və əldə etdiyimiz informasiyalarla bağlı lazımi qurumları məlumatlandırırıq. İndi İran tərəfi daha bir təxribata əl atıb. Azərbaycanın nə qədər multikultural, tolerant ölkə olduğunu dünya ictimaiyyəti yaxşı bilir. Biz də diaspora olaraq bu reallığı dünyaya yaymaqla məşğuluq. Qırmızı qəsəbə Azərbaycanın fəxarətidir. Azərbaycan-yəhudi harmoniyası bir çox ölkələr üçün nümunə olmalıdır. Bu gün İranda 35 milyon azərbaycanlının hüquqları tapdanır, öz dil və mədəniyyətlərinin inkişaf etdirilməsinə imkan verilmir. Amma biz İsraildə rahat yaşayırıq, Azərbaycanın bayrağını qaldırırıq, yürüşlər keçiririk, paytaxtın əsas küçələrində dəstək aksiyaları təşkil edirik. İran Azərbaycanın güclü və müstəqil olmasından ciddi narahatlıq duyur. Ona görə də erməni daşnaklarına hərtərəfli dəstək verir. Tehran hökuməti iddia edir ki, guya, dünyanın hər yerində müsəlmanlara yardım edir. Bəs 600 kilometrlik sərhədə sahib olan qonşu Azərbaycana niyə dəstək vermir?!".

**Diaspor təşkilatının rəhbəri bəyan edib ki, torpaqlarımız işğal altda qalanda İran heç bir addım atmadı, ancaq indi cənub sərhədimizdə hərbi təlimlər keçirir:** "İran bilməlidir ki, İsrail Azərbaycanın dostudur. Hansısa təxribat xarakterli addımlara görə, iki ölkənin sıx əməkdaşlığına, yaxın münasibətlərinə zərər yetirmək mümkün deyil. "İsraildə Azərbaycan Evi" diaspora təşkilatı olaraq İkinci Qarabağ müharibəsi zamanı İsrailin nüfuzlu media qurumlarında 20-dən artıq məqalənin dərc olunmasına nail olmuşuq. Eyni zamanda televiziya kanallarında çıxışlar etmişik. Bizim dostluğumuz, qardaşlığımız, tərəfdaşlığımız əbədidir. Hər zaman Azərbaycanın, dövlət başçısı cənab İlham Əliyevin yanında olmuşuq, onu dəstəkləmişik".

**İsmayıl Qocayev**

---

**İsmayıl Qocayev**

# "Müharibə iştirakçıları iş, çörək istəyir"

## Razi Nurullayev: "Biz onlara küçə süpürtdürə bilmərik axı!"

**Dünən Milli Məclisin payız sessiyasının ilk plenar iclası keçirilib. İlk iclasın gündəliyinə 15 məsələ daxil edilib. Spiker Sahibə Qafarova deyib ki, 3 gün əvvəl ölkəmizdə Anım günü qeyd olunub və dövlət başçısı xalqa etdiyi müraciətdə böyük qələbəmizi şərtləndirən amillərlə bağlı xalqa geniş məlumat verib:**

"Cənab Prezident bundan sonra Azərbaycan dövlətinin qalib dövlət, Azərbaycan xalqının qalib xalq kimi əbədi yaşayacağını bildirdi. Bu möhtəşəm qələbəni xalqımıza bəxş etmiş İlham Əliyevə və müzəffər əsgər və zabitlərimizə minnətdarlığımı ifadə etmək istəyirəm". Sədr təklif edib ki, Birinci və İkinci Qarabağ müharibəsində, həmçinin Vətən və xalq yolunda canından keçmiş digər şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilsin. Milli Məclisdə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. İclas zamanı "Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı" qəbul edilib.

### "İran parlamentini Xocalı soyqırımını tanımağa çağırdım"

*Parlament sədri bildirib ki, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiya dövründə və sessiyadan sonra da davam etdirilib:* "Milli Məclisin beynəlxalq əlaqələri ilə bağlı ən böyük hadisə Türkiyə və Pakistan Milli Məclislərinin sədrlərinin Azərbaycana səfəri olub. Artıq 3 dost və qardaş ölkənin yeni parlament əlaqələrinin əsası qoyulub. Əminəm ki, Azərbaycan, Türkiyə və Pakistan arasında strateji əməkdaşlıq qarşıdakı illərdə daha da genişlənəcək və dərinləşəcək. Bütün görüşlərdə 44 günlük Vətən müharibəsi ilə bağlı məlumatlar verilib. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə təmin etməsi barədə məlumatlar görüşdüyümüz rəsmi şəxslərin və nümayəndə heyətlərinin diqqətinə çatdırılıb. Bu gün də Ermənistanın müharibə cinayətlərinə rast gəlinməsi ilə bağlı AŞ PA-da keçirilən görüşlərdə məlumat verdim. Hazırlanan hesabatın həqiqətləri əks etdirməsinin vacibliyini qeyd etdim. Avqustun 6-da İranda rəsmi səfərdə oldum. Səfər çərçivəsində keçirdiyimiz görüşlərdə Azərbaycanın öz torpaqlarını azad etdikdən sonra İranla dövlət sərhədimizin tam nəzarətə götürülməsini diqqətə çatdırdım. Görüşdə İran parlamentini Xocalı soyqırımını tanımağa çağırdım. Avstriyada işgüzar səfər çərçivəsində iştirak etdiyim konfransda Ermənistan Parlamentinin sədrinin əsassız iddialarına cavab verdim".



> "Əgər onlara yüksək maaşlı iş təklif olunsa, inanıram ki, əlillik dərəcəsi almaq üzərində bu cür "savaş" başlamaz"

### "Azərbaycanda "beşinci kolon" deyəndə hamı üzünü şimala yox, cənuba tutmalıdır"

*Millət vəkili Fazil Mustafa vurğulayıb ki, bu gün Azərbaycanda ən böyük problemlərdən biri dini məsələlər ətrafında baş verən hadisələrdir. Deputat deyib ki, Azərbaycanda "beşinci kolon" deyilən məsələdə hamı üzünü şimala tutur:* "Amma hamı üzünü cənuba tutmalıdır. Bu məsələyə nəzarət edən qurumların səlahiyyətləri artırılmalıdır. Qadın ölümləri, məişət zorakılığı ilə bağlı qanuna da yenidən baxılmalıdır. Qanunda cəzanın sərtləşdirilməsi, profilaktik tədbirlərin artırılması məsələsinə yer vermək lazımdır. Digər məsələ sahibkarlıqla bağlı problemlərdir. Demək olar ki, Azərbaycanda rəqabət mühiti yoxdur. Bu gün sahibkarların hamısı gileylənir, narazıdır. Rəqabət Məcəlləsinə yenidən baxmalı və bunu qəbul etməliyik".

*Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli deyib ki, ilk növbədə Rəqabət Məcəlləsinin qəbul edilməsi ilə bağlı məsələ həll edilməlidir. Onun fikrincə, bunu etməsək, qeyri-neft sektorunun inkişafının təminini gecikdirmiş olacağıq:* "Dövlət büdcəsinin formalaşdırılmasında Milli Məclisin rolunun artırılması çox vacibdir. Yaşadığımız mərhələ büdcənin hər manatına daha ciddi nəzarət etməyin vacibliyini göstərir. Büdcənin nəticəliliyinin artırılmasına nəzarətin gücləndirilməsi lazımdır. Qanunda imkan verilməlidir ki, Hesablama Palatası nəticəliliyə nəzarət etməyə məsul olsun". Deputat qeyd edib ki, büdcə zərfinə daxil olan qanunlarda yaşayış minimumu təkmilləşdirilməli və mövcud şəraitə uyğunlaşdırılmalıdır: "İkincisi, büdcədə şəhid ailələri və qazilərin problemlərinin həllinə diqqət artırılmalıdır. Qazilərin pensiyası, müalicəsi ilə bağlı problemlər var. Bu problemlərə daha çox diqqət yetirmək lazımdır. Biz yeni - postpandemiya və postkonflikt mərhələsinə keçmişik. Bunların hər birinin öz problemləri var. Ötən əsrdə və bu əsrin əvvəlində qəbul edilən qanunların təkmilləşdirilməsinə böyük ehtiyac var. Xarici investisiyalarla bağlı qanun təkmilləşdirilməlidir. İşğaldan azad olunmuş ərazilərə xarici investisiyaların cəlb edilməsi hazırda bizim üçün çox vacibdir. Bu sahədə bəlkə də yeni qanunun qəbuluna ehtiyac var. Sahibkarlıq fəaliyyəti, qiymətləndirmə fəaliyyəti ilə bağlı qanunlara yenidən baxılmalı, hətta yeni qanunlar qəbul edilməlidir. Qanunlar yeni yaşadığımız dövrün tələbinə uyğunlaşdırılmalıdır".

### "Sosial şəbəkələrlə bağlı ayrıca qanun qəbul etməliyik"

*Millət vəkili Sahib Alıyev bildirib ki, sosial şəbəkələrlə bağlı ayrıca qanun qəbul edilməlidir. Deputat bildirib ki, hazırda Azərbaycana qarşı informasiya savaşında sosial şəbəkədən faydalanırlar:* "ABŞ-da olan bəlli bir qrup sosial şəbəkələrdə Azərbaycanda demokratiyanın olmaması və s. ilə bağlı uydurmalar yayır. Sonra bizə qarşı olan beynəlxalq təşkilatlar bu uydurmalardan istifadə edirlər. Bundan başqa, 44 günlük savaşımızda Azərbaycanın rolunun azaldılması, dini məzhəblə bağlı iddialar var. Sosial şəbəkədə bəzi qruplar ayrı-ayrı ölkələrin xüsusi xidmət orqanlarına bağlı fəaliyyət göstərirlər".

### "Ömər aşırımına Prezident İlham Əliyevin adı verilsin"

*Deputat Sahib Alıyev Ömər aşırımına ölkə rəhbəri İlham Əliyevin adının verilməsini təklif edib:* "Adətən, çox böyük işlər görmüş insanlarla bağlı ya dünyasını dəyişəndə, ya da əldən düşəndə deyirlər ki, səndən sonra səndən ucalan ucalıqlar qalacaq. Bəzi yüksəkliklər var ki, 44 günlük savaşda şəhidlərin qanı bahasına azad olunub. Bu yüksəkliklərin çoxu adsızdır. Onlara ad verilməlidir. Təklif edirəm ki, azad olunan ən hündür yüksəkliyə - Murovdağdakı Ömər aşırımına Prezident İlham Əliyevin adı verilsin".

### "Müharibə iştirakçılarının əksər hissəsi təhsilsiz, peşəsiz və sənətsizdir"

*Deputat Razi Nurullayev müharibə iştirakçılarının məşğulluğu ilə bağlı qanun hazırlamaq istədiyini söyləyib:* "Müharibə iştirakçılarının sosial vəziyyətini, işsizlik problemini nəzərə alaraq, onların sosial güzəranının yaxşılaşdırılmasına yönəlik əlavə tədbirlər görməliyik. Bu layihəni mövcud sosial təminatlara dair qanunlara əlavə kimi hazırlayıb təqdim etmək istəyirəm. Məqsəd müharibə iştirakçılarının peşə təhsilinə, ali təhsilə, sənətkarlığa və məşğulluğa cəlb edilməsidir. Səfərbərlik və könüllü müharibə iştirakçılarının əksər hissəsi təhsilsiz, peşəsiz və sənətsizdir. Biz onlara küçə süpürtdürə bilmərik axı! Hətta, məşğulluq proqramı çərçivəsində verilən mal-heyvan, qoyun-quzu saxlamaqda belə çətinlik çəkirlər. Niyə? Çünki onlara təklif olunan məşğulluq sahələri içərisində ən asanı mal-heyvan almaqdır. Hər rayonda isə bu tip məşğulluğu 2-3 min şəxs növbəyə dayanıb. Yeganə çarə onları peşəyə və təhsilə cəlb etməkdir. Müharibə iştirakçılarına cavab vermək olmur, hamısı iş istəyir, çörək istəyir. Yaralı müharibə iştirakçılarının çoxu əlillik dərəcəsi almaq istəyir. Əgər onlara yüksək maaşlı iş təklif olunsa, inanıram ki, əlillik dərəcəsi almaq üzərində bu cür "savaş" başlamaz. Çıxış yolu isə dövlət proqramı vasitəsilə onların əksəriyyətinin peşəyə və təhsilə cəlb edilməsidir".

### "Meliorasiya və Su Təsərrüfatı"nın gördüyü işlər o qədər ürəkaçan deyil"

*Milli Məclisin üzvü Jalə Əliyeva deyib ki, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin gördüyü işlər o dərəcədə də ürəkaçan deyil. Deputat ölkədə su sahəsində problemlərlə bağlı dinləmələrin keçirilməsini təklif edib:* "Ölkədə bir çox yerlərdə kollektorlar təmizlənmir. Bu isə şoranlaşmaya səbəb olur. Aidiyyəti qurumların rəhbərlərinin Milli Məclisə dəvət edilməsi və dinləmə keçirilməsi vacibdir".

### "Şəhid ailələrinin əsas istəyi övladının adının əbədiləşdirilməsidir"

*Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva mədəniyyət işçilərinin güzəştli ipotekadan faydalanan kateqoriyalara daxil edilməsini təklif edib. Onun sözlərinə görə, Zəfərdən sonra bu qanuna yenidən baxılması zərurəti ortaya çıxıb:* "Şəhid ailələrinin əsas istəyi övladının adının əbədiləşdirilməsidir. Tovuzda bizim 70-dən çox şəhidimiz var. Tovuzda olan bir çox küçələrin adı yoxdur. Bu qanunlarda ediləcək dəyişikliklər şəhid adlarının əbədiləşdirilməsinə şərait yarada bilər. Anım günündə Tovuz İcra Hakimiyyətində keçirdiyimiz tədbirlərdə bununla bağlı təkliflərin Nazirlər Kabinetinə göndərildiyi deyildi. Şəhid ailələrimizin səsləndirdiyi təklifləri də yazıb, müvafiq komitəyə və hökumətə təqdim edəcəyik". Deputat ipoteka ilə bağlı qanunda da problemlər olduğunu vurğulayıb: "Mədəniyyət sahəsində çalışan və yüksək səviyyədə ölkəmizi, dövlətimizi təmsil edən gənc insanlar var. Bu insanlar mənzil-məişət problemiylə qarşılaşırlar. Güzəştli ipotekadan faydalanan kateqoriyaya mədəniyyət sahəsində çalışan şəxslərin də bu güzəştə düşməsini xahiş edirik".

# Ərdoğan-Putin görüşündə ciddi anlaşma olmayıb

## Turab Rzayev: "Qərb mətbuatı Türkiyənin görüşdən narazı qaldığını yazıb"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə Soçidə keçirilən danışıqları məhsuldar adlandırıb. Bu barədə o, öz tviter hesabında yazıb. Paylaşımda deyilir: "Həmkarım Putinlə məhsuldar danışıqlardan sonra Soçidən ayrıldıq".**

*Bir çox ekspertin fikrincə, görüşdən sonra regionda ciddi dəyişikliklər olmalı idi. Elə isə nələr gözlənilir? "Şərq" mövzunu siyasi analitik Turab Rzayevlə müzakirə edib:*



**- Görüşü necə qiymətləndirirsiniz?**

- Liderlər arasında danışıqdan sonra mətbuat konfransı keçirilməyib. Və görüş gözlənildiyindən çox az, cəmi bir saat davam edib. Görüşdən sonra Türkiyənin Suriyaya qoşun yığması və Bəşər Əsəd ordusunun ərazini bombalamağa davam etməsi onu deməyə əsas verir ki, tərəflər arasında ciddi razılıq əldə olunmayıb. Üstəgəl, Qərb mətbuatı Türkiyənin görüşdən narazı qaldığını yazıb. Eyni zamanda Putinin "Cənubi Qafqazda sülhün təmin olunmasında Türkiyənin mühüm rolu var" ifadəsi diqqət çəkir. Ərdoğanın açıqlaması da belə qənaətə gəlməyə əsas verir ki, tərəflər arasında ya bəzi məsələlərdə razılıq olub, ya da liderlər sadəcə bir-birlərinin xətrinə dəyməməyə çalışaraq, proseslərin inkişafını zamana buraxıblar.

**- Bu ərəfədə rəsmi Tbilisinin vasitəçilik təklifini və Gürcüstan baş nazirinin Bakıya səfərini nəzərə alsaq, proseslərin "Altılıq platforması"nın yaranmasına doğru getdiyini deyə bilərik?**

- Ərdoğan bunu uzun müddətdir istəyir. Əsas maneə İranın mövqeyidir. Gürcüstan Rusiya ilə ziddiyətli münasibətlərə rəğmən, bu layihəyə qoşulmaqla nə isə itirməz.

**- Bəs qonşumuzun vasitəçilik təklifi?**

- Bu, ilk deyil. İstənilən halda Gürcüstanın xüsusi missiyası olmayacaq. Çünki təsir imkanları çox deyil. Regionda sabitliyin təmin olunması üçün əsas "oyunçular" Ankara və Moskvadır. Əlbəttə, Fransa və ABŞ kimi güclərin proseslərə təsirini də nəzərə almaq lazımdır.

**- Bildiyimiz kimi, Ermənistan Baş naziri Nikol Paşinyan Türkiyə ilə yaxınlaşmaq barədə açıqlamalar verib. Kremlin buna münasibəti necə olacaq?**

- Moskva nəzarət etmək istədiyi ərazidəki kənar təsir qüvvəyə qarşı həmişə qısqanc olub. Əlbəttə, Rusiya Ermənistanla Türkiyənin yaxınlaşmasını istəmir. Azərbaycanla Türkiyə arasında müttəfiqliklə bağlı konkret sənədlər var. İrəvanın da Ankaraya yaxınlaşması o deməkdir ki, daha Moskvaya ehtiyac olmayacaq. Yəni şimal qonşumuzun regiondakı təsir imkanları zəifləyəcək. Amma başqa bir məsələ də var: Rusiyanın resursları limitlidir. Bu mənada Kreml bəzi ərazilərdəki mövqelərini nisbətən yaxın dövlətlə bölüşmək istəyir, nəinki Qərblə. Yəni Mərkəzi Asiyada Çinlə, Cənubi Qafqazda isə Türkiyə ilə hesablaşmaq Rusiyaya daha çox sərf edir, nəinki Avropa Birliyinin həmin regionlara gəlməyi.

**Kənan Novruzov**

---

**Dünən Parlamentin iclasında deputat Ziyafət Əsgərov maraqlı təkliflə çıxış edib. Millət vəkilinin sözlərinə görə, Azərbaycanda siyasi vəzifələr haqqında qanun qəbul edilməlidir:**



# "...Sevindim"

## Ziyafət Əsgərovun təklifinə Tural Abbaslı ironiya ilə münasibət bildirdi

"Dövlət qulluğu haqqında" qanun var, lakin orada göstərilmir ki, siyasi vəzifə daşıyanlar kimlərdir".

O, daha sonra deyib ki, biz hələ də bilmirik konkret kimlər, komitə sədri və ya nazir - hansı siyasi vəzifə daşıyır.

**Təkliflə bağlı "Şərq"ə açıqlama verən AĞ Partiya başqanı Tural Abbaslı təəssüflə qeyd edib ki, ölkəmizdəki müxalifət və yaxud partiyalar haqqında qanun yoxdur deyə kimlərə müxalifət deyildiyi bilinmir:** "Eyni zamanda müxalifətin və iqtidarın kim olduğu, hansı hüquqlara malik olduğu ilə bağlı da heç bir normal aktlar və qanunlar yoxdur. Deputatın təklifi normaldır. Lakin səhv etmirəmsə, Ziyafət Əsgərov 20 ildir ki, parlamentdədir. Bu qədər ildən sonra onun belə qanunun qəbuluna dair təklifi yadına salmasına sevindim.

Siyasi vəzifələrlə bağlı təcrübəsi olan dövlətlərin nümunələrindən istifadə etmək olar. Mental dəyərlər, xarakter və siyasi quruluş baxımdan Türkiyəni örnək götürə bilərik.

Bütün bunlar qardaş ölkədə çoxdan təsbitlənib. Lakin bizdəki sistem şəxsiyyətlər əsasında formalaşır.

Məsələn, nazir dünyasını dəyişir deyə həmin nazirlik ləğv olunur. Lakin şəxslər yox, sistem olmalıdır və həmin şəxslər sistemin tərkibində yer almalıdır.

Dövlətçilik baxımından faydalı təklifdir, hər halda qanun layihəsi hazırlansa, daha konkret fikir bildirmək olar".

**Yeganə Bayramova**

---



# İnhisarçılıq milləti çökdürüb

## Ölkədə dərman satışı dövlətin nəzarətinə keçməlidir

**Parlamentin dünənki iclasında millət vəkilləri arasında dərman və dərman preparatları ilə bağlı fikir ayrılığı yaranıb. Deputat Musa Quliyev bildirib ki, vaxtı ilə bir neçə dərman şirkəti Azərbaycanı tərk edib getdi və bu gün Azərbaycan dünyanın bir çox keyfiyyətli dərmanlarını ala bilmir.**

O bildirib ki, Azərbaycan Türkiyə və Gürcüstan nümunəsindən istifadə edib, dərmanlarla bağlı qeydiyyatda tanınmanı tətbiq etməlidir.

Millət vəkili onu da əlavə edib ki, Türkiyədə dərmanlara əlçatanlılıq asandır: "Buna görə təklif edirəm ki, Türkiyədə qeydiyyatdan keçmiş dərmanlar Azərbaycana gətirilsin və onların qeydiyyatı tanınsın. Onlar həm də keyfiyyətlidir".

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə M.Quliyevin fikrinə etiraz edib: "Şübhəsiz ki, ölkədə dərman çatışmazlığı var. Ancaq mən Musa müəllimin fikri ilə razı deyiləm. Hər hansı ölkədə qeydiyyatdan keçmiş dərman preparatlarının qeyd-şərtsiz, icazəsiz Azərbaycana gətirilməsi problem yaradar. Hər ölkənin öz dərman siyasəti var. Dərmanlar mütləq yoxlanılmalıdır, o, hansı ölkədə istehsal olunmasından asılı olmayaraq. Heç bir şərt olmadan dərmanların ölkəyə gətirilməsi təhlükə yaradar".

***"Yoxsa, Türkiyə və digər ölkələrin dərmanlarını gətirib yenə monopolist qaydada satacaqlarsa, dəyişən nəsə olmayacaq"***

**Ölkəmizdə dərman təsisatı və satışındakı monopoliyanın aradan qaldırılmalı olduğunu söyləyən "Borçalı" İctimai Birliyinin sədri, ictimai-siyasi xadim, həkim Zəlimxan Məmmədli "Şərq"ə açıqlamasında vurğulayıb ki, ayrı-ayrı firmalar qonşu dövlətlərdəki dərmanları baha qiymətə sataraq, bazarda bu durumu özləri tənzimləyirlər:** "Düşünürəm ki, keyfiyyətli dərmanların insanlara əlçatan olmasını təmin etmək üçün monopoliyanı ləğv etməyin yolu dərman satışını dövlətin nəzarətinə verməkdir. Müvafiq dövlət orqanları dərmanların keyfiyyəti ilə bağlı sertifikatlar verməlidir. Keyfiyyətsiz dərmanların Azərbaycan bazarına daxil olmasının qarşısını almaq vacibdir. Çünki ölkəmizdə kifayət qədər keyfiyyətsiz, saxta etiketlərlə bəzədilmiş, komponentləri yetərli olmayan və baha satılan dərmanlar var. Bütün bunlar dövlət nəzarətində olarsa, vətəndaşlarımızı daha çox qazana bilər. Ədalətli, vicdanlı və namuslu dövlət qurumları olsa, fərqli bir mühitin şahidi olacağıq. Türkiyə və digər ölkələrin dərmanlarını gətirib yenə monopolist qaydada satacaqlarsa, dəyişən nəsə olmayacaq".

**Yeganə Bayramova**

---

# Gürcüstanın niyyəti xoşdur, ancaq təsir gücü azdır

## Sülh müqaviləsi böyük dövlətlərin iştirakı və vasitəçiliyi ilə reallaşır

**Gürcüstan baş nazirinin və nümayəndə heyətinin Azərbaycana səfəri son dərəcə uğurlu keçib. Bu barədə Gürcüstanın Xarici işlər naziri David Zalkaliani səfərin yekunlarını dəyərləndirərkən bildirib.**




Onun sözlərinə görə, son 10 ildə ilk dəfə keçirilən hökumətlərarası iqtisadi komissiyanın iclasında sektorial əməkdaşlığa dair 6 sənəd imzalanıb. Nazir qeyd edib ki, imzalanan sənədlər regionda uzunmüddətli sülh və sabitliyə, vacib layihələrin həyata keçirilməsinə töhfə verəcək. Baş nazir İrakli Qaribaşvili görüşlərdən sonra "Twitter" hesabındakı paylaşımında Azərbaycan Prezidenti ilə görüşün çox əla keçdiyini yazıb. Qaribaşvili vurğulayıb ki, dövlət başçısı İlham Əliyevlə Azərbaycan-Gürcüstan əlaqələri və regional transformasiyaya dair müzakirələr aparıb. Söhbət zamanı ikitərəfli əhəmiyyət daşıyan mövzular, strateji tərəfdaşlıq və əməkdaşlığın dərinləşdirilməsi də müzakirə predmeti olub. Baş nazir Gürcüstan-Azərbaycan hökumətlərarası İqtisadi Komissiyanın iclasının da məhsuldar keçdiyini qeyd edib. Deyib ki, tədbirin qlobal pandemiya dövründə baş tutması iki ölkənin iqtisadi inkişafına və dayanıqlı genişlənməyə dair ortaq baxışının aydın sübutudur.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana səfəri və ölkəmizdə apardığı danışıqlar iki dövlət arasında siyasi-iqtisadi əlaqələrin inkişafına yönəlib. Ekspertin sözlərinə görə, Qaribaşvili oktyabrda keçiriləcək seçkilərdə Azərbaycanın tam dəstəyini almaq istəyir:** "Ona görə də baş nazirin Bakıya səfəri təkcə vasitəçilik missiyası, yaxud iqtisadi əməkdaşlıq kimi xarakterizə edilməməlidir. Ümumən, qeyd edim ki, İrakli Qaribaşvilinin Ermənistan və Azərbaycan arasında vasitəçilik niyyəti regionda ümumi təhlükəsizliyə və sülhə xidmət edə bilər. Amma real yanaşsaq, Tbilisinin effektli vasitəçiliyi mümkün görünmür. İlk növbədə Rusiya buna imkan verməyəcək. Belə məqamda Gürcüstan tərəfi yalnız iki ölkənin təkliflərini Bakıya və İrəvana çatdıra bilər. Hələki proseslərdə əsas vasitəci Rusiyadır. Müstəqil siyasət yeritməyən Ermənistan birbaşa Moskvadan asılıdır və Kremldən verilən təlimatlar İrəvan üçün əsasdır. İrəvan Tbilisinin vasitəçiliyinə razılıq versə belə Moskva bunun qarşısını alacaq. Gürcüstanın vasitəçiliyi onda səmərəli və müsbət ola bilər ki, Ermənistan hakimiyyəti müstəqil siyasətə malik olsun. Rəsmi Tbilisi yalnız humanitar missiyalarda vasitəçi ola bilər. Sülh müqaviləsi isə böyük dövlətlərin iştirakı və vasitəçiliyi ilə reallaşır. Xatırladım ki, bu il aprel ayında Gürcüstanın vasitəçiliyi ilə mina xəritələrinin verilməsi həyata keçirilirdi. Sonra məlum oldu ki, Ermənistan Gürcüstanı da aldadıb".

**İsmayıl Qocayev**

---

# "Qarabağın hava qapısı" artıq dünyaya açılır

## Füzuli Hava Limanı dünyada ən qısa müddətdə inşa edilən beynəlxalq hava limanlarından hesab olunur



**"Bu ilin may ayında Füzuli Hava Limanının inşaatı ilə tanış olan zaman çoxlarımıza sentyabrda limanın artıq təyyarələri qəbul edəcəyi bəlkə də arzu kimi görünürdü. Artıq Beynəlxalq Hava Limanında tamamlanma işləri aparılır".**

Bunu iqtisadçı-deputat Vüqar Bayramov Füzuli Beynəlxalq Hava Limanında aparılan tamamlama işləri haqda danışarkən deyib. Millət vəkili qeyd edib ki, cəmi 9 ay ərzində Füzuli Hava Limanı inşa edildi və artıq uçuşları qəbul edə bilir: "Füzuli Aeroportu dünyada ən qısa müddətdə inşa edilən beynəlxalq hava limanlarından hesab olunur. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Füzuli Beynəlxalq Hava Limanı "Qarabağın hava qapısı" elan olunub. Bu isə ondan xəbər verir ki, sözügedən hava limanının istifadəyə verilməsi bir tərəfdən Qarabağın, digər bölgələrimizin, eyni zamanda daha geniş anlamda dünya ilə əlaqələrinin daha da genişləndirilməsinə imkan verəcək. Bu, Qarabağımızın Azərbaycan iqtisadi reinteqrasiya baxımından vacibdir. İşğaldan azad olunan ərazilərimiz bərpa və yenidənqurma mərhələsindən sonra Azərbaycan iqtisadiyyatının 8 faizini formalaşdıracağı gözlənilir. Bu, əlavə 5 milyard manatdan artıq yeni dəyərin yaradılması deməkdir. Bu baxımdan Füzuli Beynəlxalq Hava Limanı Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsinə xüsusi töhfə verəcək".

**Aynurə**

---

# Dəyişikliyin xeyri olmayacaq

## 50 manat müavinət heç nəyə çatmır

**Azərbaycanda çoxuşaqlı analara müavinət təyin olunması qaydası dəyişib. Artıq 3 deyil, 5 və daha çox uşaqlı analar çoxuşaqlı analar sayılacaq. Bu, Nazirlər Kabinetinin "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda etdiyi dəyişikliklə bağlı qərarda öz əksini tapıb.**

Çoxuşaqlı analara yaşa görə müavinətin təyin edilməsi üçün qadının 5 və daha çox uşaq doğub onları 8 yaşınadək tərbiyə etməsi barədə yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı tələb olunacaq.

Azərbaycan ailələrinin ata, ana, 1 övlad, "bəd ayaqda" 2 övladdan ibarət olması məlum həqiqətdir. Azərbaycan ailələri, əvvəlki kimi 6-7, 8-10 uşaqlı ailələr deyil. Bu ailələrdə artıq nənələr, babalar da ailə tablosu xaricindədir. "Əlifba", "Ana dili" dərsliklərində gördüyümüz xoşbəxt ailə mənzərəsi - ata qəzet oxuyur, ana yemək masası hazırlayır, nənə divanda əyləşib corab toxuyur, böyük yaşlılar dərsləri ilə məşğuldur, kiçik yaşlılar oyuncaqları ilə oynayır - daha yoxdur. Artıq çoxdandır, ilk övlad qızdırsa, ikincinin oğlan uşağı olması üçün ana növbəti hamiləliyə razılaşır, ilk övlad oğlansa, əla! Daha övlada ehtiyac yoxdur. Əlbəttə, istisnalar həmişə var. Biz yayqın olanını dedik. Belə şəraitdə bir ailədə 5 uşağın olacağı mücərrəd görünür. Hətta normal maddi vəziyyətə malik ailə də 5 övladı arzulamaz. Sadə bir əsasla ki, "1 uşağa normal baxaq, ehtiyaclarını ödəyə bilək, gerisi lazım deyil".

Deməli, qərara dəyişiklik edilirsə, bundan çox az sayda ailə yararlana biləcək. Məqsəd əhali sayını artırmaq, müsbət ənənələri bərpa etməkdirsə, bu qərarla çətin ki, mümkün olsun.

**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında çoxuşaqlı analara müavinət təyin edilməsi qaydalarındakı dəyişikliyin qadınları 2-dən artıq övlad dünyaya gətirməyə təşviq etməyəcəyini söylədi:**

- Sizin ətrafınızda 5 uşaqlı ailələr var?.. Şəxsən mən 5 uşaqlı nə gənc, nə də orta yaşlı ailələri tanıyıram. Belə ailələr 40-50 il əvvəl vardı. İndi heç kənd yerlərində də 2, uzaqbaşı 3-dən artıq övlad dünyaya gətirən yoxdur. Çünki hər bir övlad maddi təminat deməkdir. Orta imkanlı ailələr bunu özlərinə rəva bilmirlər. Əvvəllər 3 övladı olan analara 57 yaşında müavinət ayrılırdı. Lakin bu mexanizm 2 il əvvəl dayandırıldı. İndiyədək müavinət alanlara yenə tətbiq olunur, lakin son 2 ildə qaydalar dəyişib və övladlarının sayı 5 olanlar çoxuşaqlı ana sayılır. İndiki şəraitdə hansısa qadının 5 övlad dünyaya gətirmək istəyində olacağını düşünmürəm. Uzun müddət övladı olmayan qadınlar, bəli, süni mayalanma ilə 3, 4, hətta 5 uşaq da dünyaya gətirir. Lakin belə hallar çox azdır. Hər bir uşaq maddi təminat, qulluq, səhiyyə, təhsil xərcləri deməkdir. Bir uşağa görə 50 manat müavinət verilir. 50 manat nəyə çatacaq? Bu pul uşağın aylıq xərclərini ödəyə bilməz. İmtiyazlar, güzəştlər, müavinətlər elə həddə olmalıdır ki, analar nəinki 5-dən artıq, heç olmasa, 1-dən artıq övlad dünyaya gətirməyə razı olsunlar, alacaqları müavinətə güvənsinlər. Biz artıq neçə ildir uşaq pullarının bərpa olunması məsələsini gündəmə gətiririk, deyirik, lakin nə parlamentdən, nə də hökumətdən bir tərpəniş var. Heç olmasa, hər uşağa ayrılan müavinət 100 manat olsa, bununla hansısa xərcləri qarşılamaq olar. Əvvəlcə uşaq pulu məsələsinə aydınlıq gətirilsin, sonra çoxuşaqlı analardan danışsınlar. İnanmıram ki, hansısa gənc ana indiki vəziyyətdə 1 və ya 2-dən artıq övlad dünyaya gətirməyə cürət etsin.

***İndiki vəziyyətdə heç bir ana 5 uşaq dünyaya gətirmək istəməz***



**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Minlərlə tələbənin arzusu reallaşacaq

## 40 min tələbəyə kredit vermək imkanı mütərəqqi hadisədir

**Aynurə Pənahqızı**

**Ötən gün Təhsil naziri Emin Əmrullayev AzTV-yə müsahibəsində Təhsil Nazirliyinin 40 minə yaxın tələbəyə kredit vermək imkanı olduğunu deyib. Nazir qeyd edib ki, Azərbaycanda tələbə kreditlərinin verilməsi ilə bağlı Təhsil Tələbə Krediti Fondu ötən yay tətili ərzində bir çox işlər görüb: "Oktyabr ayı ərzində bununla bağlı elektron sistem işə düşəcək. Həm həssas qrup üçün sosial, həm də standart kreditlər olacaq. Bu sistemdə şəffaflıq mövcuddur, çünki digər sistemlərə inteqrasiya olunub.**

Tələbələr öz FİN nömrələrini daxil edərək sistemə qoşulacaqlar. Həmin inteqrasiya olan sistemlərdən tələbə, onun ailəsi və digər məlumatlar toplanılır. Əgər ailədə əlilliyi olan şəxs varsa, ünvanlı sosial yardım alırlarsa, bu halda tələbə sosial kredit ala bilər. Bütün bu proseslər sistem elektron olduğu üçün bir neçə saniyə ərzində baş verir. Digər hallarda isə standart kredit ala biləcəklər".

E.Əmrullayev vurğulayıb ki, proses müvəkkil banklar tərəfindən həyata keçiriləcək: "Fondun nizamnamə kapitalı 80 milyon manatdır. Əgər tələbə müraciət edərsə, kredit veriləcək. Bu, məcburi bir şey deyil, imkandır. Hər kəs tələbə krediti almalıdır deyə bir qayda yoxdur. Amma tələbənin təhsilini maliyyələşdirmək imkanı yoxdursa, onda təhsil kreditinə müraciət edə bilir. Kreditlər uzunmüddətlidir. Orda bir neçə güzəşt də nəzərdə tutulub. Əgər yaxşı oxuyurlarsa, onlara faiz və ya əsas hissə güzəşt edilir".

Bəs prosedur necə olacaq? Hansı tələbələr yararlana biləcək?

Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında bildirib ki, son illər bir çox tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə, ali təhsilini yarımçıq saxlayıb. Ekspert qeyd edib ki, bu tələbə krediti məhz ali və orta təhsilin əlçatanlığına xidmət edəcək: "Təhsil tələbə kredit

***"Təhsil tələbə kredit fondunun yaradılması ölkədə təhsil haqqını ödəyə bilməyən tələbələrə ciddi şəkildə böyük dəstək olacaq"***

fondunun yaradılması ölkədə təhsil haqqını ödəyə bilməyən tələbələrə ciddi şəkildə böyük dəstək olacaq. Bu kredit fondu Təhsil Nazirliyinin tabeçiliyində olacaq. Kredit fondunun əsas məqsədi ödənişli əsaslarla təhsil alan və əhalinin sosial həssas qrupuna aid olan şəxslərə kreditin verilməsidir. Eyni zamanda yüksək akademik göstəriciləri olan tələbələrə də kreditlər veriləcək. Hansı ki, onlar yüksək bal toplayaraq ödənişli əsaslarla təhsil alırlar. Qeyd edim ki, təhsil tələbə kredit fondundan iki kateqoriya kredit veriləcək: sosial və standart. Sosial həssas qruplara, standart isə akademik göstəriciləri yüksək olanlara veriləcək.

Ümumilikdə, təhsil naziri açıqladı ki, 40 minə yaxın tələbəyə kreditin verilməsi nəzərdə tutulur. Bu həm ali, həm orta ixtisas, eyni zamanda magistratura pilləsində təhsil alanlara şamil olunur. Qeyd edim ki, 40 min tələbəyə kreditin verilməsi müasir dövr üçün mütərəqqi qərardır. Çünki bilirsiniz ki, hər il təhsilin sırf ödənişi ödəyə bilməmək ucbatından dayandıran yüzlərlə tələbəmiz var idi. Bu nöqteyi-nəzərdən kreditin verilməsi əlverişli imkan yaradır ki, həmin tələbələr təhsillərini davam etdirsinlər. Nəzərə alaq ki, bizdə hər ali, eyni zamanda orta ixtisas təhsil müəssisələrinə qəbul olan tələbələrin təxminən yarıdan çoxu ödənişli əsaslarla təhsil alır. Təbii ki, kreditin verilməsi təhsilin onlar üçün əlçatanlığını təmin edəcək".




Təhsil eksperti vurğulayıb ki, standart kredit akademik göstəriciləri 75 bal üzərində olan şəxslərə veriləcək, əsasən də bu il qəbul imtahanlarında yüksək nəticə əldə edən tələbələrə şamil olunacaq: "Tələbələr krediti almaq üçün birbaşa Təhsil Nazirliyinə, eyni zamanda Tələbə Təhsil Kredit Fonduna müraciət etməlidir. Müraciət əsasında onlara müəyyən olunmuş iki kateqoriyada hər hansısa birinə aid olduqları müəyyən olunarsa, onlara təhsil aldıqları ixtisasın illik təhsil haqqı nə qədərdisə həmin məbləğdə kredit veriləcək. Təhsil kreditinin geri qaytarılması müxtəlif üsullarla baş tutacaq. Bəziləri iş həyatına başlayandan sonra, bəziləri də tələbəlik dövründə aldığı təqaüdlə krediti geri qaytara bilər. Hesab edirəm ki, bu yenilik ödənişli əsaslarla təhsil alan tələbələr üçün uğurlu qərardır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Zəngəzur Qarabağ qədər bizim üçün vacibdir

## Azərbaycanlılar yenə tarixi torpaqlarında yaşayacaqlar

**Milli Məclisin dünənki iclasında millət vəkili Aydın Mirzəzadə 7 iyul tarixi ilə bağlı təklif irəli sürüb.**

Parlamentari diqqətə çatdırıb ki, Azərbaycanda 7 iyul "Zəngəzur günü" kimi elan olunsun: "1923-cü ilin 7 iyul tarixində Azərbaycanda Dağlıq Qarabağ Muxtar Vilayəti formalaşdırılıb. 2021-ci ilin iyulun 7-də isə Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Bu, tarixi ədalətin bərpası idi".

**Təklifi dəyərləndirən tarixçi-alim Faiq Ələkbərli "Şərq"ə bildirib ki, 7 iyul "Zəngəzur günü" elan edilməsi prinsip etibarilə mümkündür:**

"Ümumiyyətlə, Qarabağ bizim üçün nə dərəcədə önəmlidirsə, Zəngəzur da o qədər vacibdir. Tarixdən də bilirik ki, Zəngəzur Azərbayan torpaqları olub, Azərbaycan türklərinin, dövlətlərinin həmişə bir hissəsi olub. Bu anlamda indi Şərqi Zəngəzur Azərbaycan Respublikasının ərazisidir. Bu gün Qərbi Zəngəzur isə bildiyimiz kimi vaxtilə SSRİ dövründə rəsmi Moskvanın təzyiqləri nəticəsində Ermənistana verilib. Azərbaycan SSRİ rəhbərliyi Qərbi Zəngəzuru Ermənistan SSRİ-nin tərkibinə qatılmasına etiraz edə bilməyib. Bu bir gerçəklikdir. Bu, o demək deyil ki, biz Zəngəzur məsələsindən əl çəkməliyik. Əlbəttə, Zəngəzur Azərbaycan torpaqlarının bir hissəsidir. Bu, dünən də belə olub, bu gün də belədir".

**F.Ələkbərlinin qənaətincə, Zəngəzurun Azərbaycanın bir hissəsi olması baxımından "Zəngəzur günü"nün elan edilməsi çox mühümdür:** "Zəngəzur məsələsinin də Qarabağ məsələsi kimi diqqətdə saxlanılması vacibdir. Şübhəsiz ki, bu kimi təkliflərin meydana çıxması da təsadüfi deyil".

Tarixçi qeyd edib ki, bu, Qarabağa, Şərqi Zəngəzura qayıtdığımız kimi Qərbi Zəngəzura da qayıdacağımıza işarədir:

"Azərbaycanlılar yenə də Zəngəzur torpaqlarında yaşamağa davam edəcəklər. Tarix gec-tez öz həqiqəti ilə ortaya çıxacaq. Bu baxımdan "Zəngəzur günü"nün təsis edilməsi təklifini müsbət qiymətləndirirəm".

*Müsahibimiz vurğulayıb ki, əsas məqsəd böyük Azərbaycanımızın bütün torpaqlarına sahib çıxmaqdır:*

"Ümid edirik ki, bu, bir gerçəkliyə çevriləcək".

**Sücayət Mehti**

# Zəfər yürüşü və tarixi ədalətin bərpası:

## dövlətçilik tariximizin qürur səhifəsi

**Bu günlərdə Azərbaycan dövlətçilik tarixinin ən şanlı səhifəsini təşkil edən Vətən müharibəsinin birinci ildönümü tamam olur. O unudulmaz, qürur dolu günlər, hər gün yaşadığımız həyəcan hamımızın yaddaşındadır. İllər keçsə də Azərbaycan xalqı o tarixi günləri heç vaxt unutmayacaq.**

Təbii ki, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi şanlı və qürurverici səhifələrlə zəngindir. Ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpası ilə nəticələnən İkinci Qarabağ - Vətən müharibəsində qazanılmış Zəfər isə xalqımızın tarixində bənzəri olmayan parlaq qələbədir. Bu, eyni zamanda, mənəviyyat hadisəsi, milli qürur və milli ləyaqətin bərpasıdır. Ümumiyyətlə, Azərbaycan dövlətinin gücü, Müzəffər Ali Baş Komandanımızın qətiyyəti və iradəsi, Ordumuzun qüdrəti, xalqımızın həmrəyliyi sayəsində qazanılmış tarixi Qələbənin mahiyyətini daha yaxşı anlamaq - daha dərindən dərk etmək üçün bir sıra mühüm məqamlara xüsusi nəzər yetirmək məqsədəmüvafiq olar.

### Azərbaycan xalqı və dövləti işğal faktı ilə barışmadı

Məlumdur ki, Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycanın torpaqlarını işğal altında saxlaması ölkəmizə maddi və mənəvi cəhətdən çox ciddi ziyanlar vurub. İşğal faktı, eyni zamanda, regional təhlükəsizliyə ciddi təhdidlər yaradıb. Azərbaycan hər zaman münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olsa da, müharibə variantını da istisna etməyib. Möhtərəm Prezident İlham Əliyev də hər zaman bəyan etmişdir ki, Azərbaycan hansı yolla olursa olsun, öz torpaqlarını azad edəcək və ərazi bütövlüyünü bərpa edəcək. Ermənistan isə havadarlarının dəstəyi və təşviqi ilə daim işğal məhsulu olan status-kvonu sonsuzadək saxlamaq - təcavüz faktını davam etdirmək niyyətini gizlətməyib. Elə danışıqlar prosesinin nəticəsiz və mənasız olmasını şərtləndirən amil məhz bu olub. Ermənistanın hərbi-siyasi rəhbərliyinin təhrikedici hərəkətləri və açıqlamaları təxribatlarla paralel surətdə davam etdirilib. Ötən ilin iyul ayında iki ölkə arasındakı dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizin, dinc sakinlər və mülki infrastrukturun erməni hərbi birləşmələri tərəfindən qəfil artilleriya atəşinə tutulması, avqust ayında işğalçı dövlətin respublikamıza diversiya qrupu göndərməsi, işğalçı ölkənin baş naziri Nikol Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" deməsi, onun işğal altındakı torpaqların heç vaxt Azərbaycana qaytarılmayacağını bildirməsi, əvvəlcədən müəyyənləşdirilən formatı dəyişdirməyə cəhdlər göstərməsi danışıqlar prosesinin tamamilə pozulmasına səbəb olub. Belə olan halda, beynəlxalq birliyin də işğalçı dövlətə münasibətdə loyallıq göstərməsi, ikili standartlardan çıxış etməsi tarixi ədalətin hərb - döyüş meydanında bərpasını zərurətə çevirib. Xüsusilə də, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı hərbi təxribat törədərək döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutması, bunun nəticəsində mülki şəxslərin, hərbçilərin həlak olması Azərbaycanın səbrini tükədib. Beləliklə, işğalçı faktı ilə barışmayan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq əmri əsasında genişmiqyaslı əks-hücum əməliyyatına başlayan rəşadətli Ordumuz 44 gün ərzində Zəfər yürüşü edərək torpaqlarımızın azad olunması missiyasını şərəflə yerinə yetirib.

### İkinci Qarabağ müharibəsi Azərbaycanın şanlı tarixidir

27 sentyabr tarixində başlayan Vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatdı. Qüdrətli Azərbaycan Ordusunun əks-hücum əməliyyatları nəticəsində 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu, Ermənistan ordusu şanlı Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Azərbaycan Ordusunun gücü qarşısında duruş gətirə bilməyən Ermənistan nəhayət kapitulyasiya aktını imzalamağa məcbur oldu. Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə rəhbərlik etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə də qələbə ilə başa çatdı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat Azərbaycan torpaqlarının işğalına son qoydu. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi, 2020-ci il dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarıldı.



Beləliklə, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyümüzü öz gücü, qüdrəti hesabına bərpa etdi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrini özü həyata keçirdi.

Azərbaycan Ordusu bu qələbəni döyüş meydanında qəhrəmanlıq, şücaət, vətənpərvərlik və fədakarlıq göstərərək qazandı. Xüsusi vurğulamaq gərəkdir ki, Azərbaycanın şanlı tarixi olan İkinci Qarabağ müharibəsi XXI əsrin müharibəsi kimi dünyanın diqqət mərkəzində olduğundan Azərbaycan Ordusunun ən müasir texnika və texnologiyalardan istifadə etdiyi 44 günlük müharibə dünyanın nüfuzlu hərbi tədqiqat mərkəzlərində öyrənilir.

Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi.

### Qəhrəman Vətən övladlarına hörmət və ehtiram sonsuzdur

Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada gücünü göstərdi. Son illər ərzində ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən çoxşaxəli islahatlar, möhkəm əsaslara malik xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyədə qurulması və həmrəyliyin təmin olunması, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və bu kimi əhəmiyyətli nailiyyətlər bu Qələbəni şərtləndirən mühüm məsələlər sırasındadır.

Vətən müharibəsi xalqımızın qürur mənbəyi, dövlətimizin isə gücünün - qüdrətinin ifadəsidir. Azərbaycan dövləti və cəmiyyəti ölkəmizin ərazi bütövlüyü uğrunda həyatlarını və sağlamlıqlarını fəda etmiş qəhrəman Vətən övladlarına xüsusi hörmət və ehtiram göstərir. Bu, eyni zamanda, milli birliyin - həmrəyliyin ifadəsidir. Sentyabrın 27-də - Anım günündə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edilməsi də bu baxımdan xüsusi qeyd edilməlidir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, gənc kursantlar və hərbçilərin iştirak etdikləri yürüş xalqın birliyinin daimi və sarsılmaz olduğunu göstərdi.

### Azərbaycanın yaratdığı reallıqlar dəyişməzdir

Beləliklə, Azərbaycanın münaqişəni hərbi-siyasi yolla həll etməsi regionda və dünyada yeni reallıqlar yaradıb. Artıq müharibə səhifəsi bağlanıb, erməni faşizminin başı əzilib - beli qırılıb, separatizm yerindəcə məhv edilib. "Münaqişənin hərbi yolla həlli yoxdur" deyənlərin qərəzli, ikili standartlara əsaslanan siyasəti, ermənipərəst mövqeyi iflasa uğradılıb, tarixi ədalətsizlik aradan qaldırılıb.

Azərbaycanın yaratdığı reallıqlar, həmçinin geostrateji əhəmiyyətə malikdir. Yeni şəraitdə regionda kommunikasiya xətlərinin bərpası - yeni nəqliyyat dəhlizinin yaradılması sülhün, təhlükəsizliyin, çoxtərəfli əməkdaşlığın təmin olunması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Bu, regionda bütün xalqların və dövlətlərin mənafeyinə uyğundur. Ona görə də hər kəs bu reallıqları qəbul etməlidir. Xüsusilə də, regional təhlükəsizliyə təhdid yaradan davranışlara yol verən dairələr, Ermənistan və ermənipərəst mərkəzlər təxribatçı addımlardan çəkinməlidirlər. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müxtəlif layihələrin icrası Azərbaycanın sosial-iqtisadi gücünün artmasına xidmət edir. Görülən işlər fonunda mövcud reallıqlar Böyük Qayıdışın ən yüksək səviyyədə təmin olunacağını deməyə əsas verir.

Beləliklə, ərazi bütövlüyünün bərpası Azərbaycanın qarşısında yeni perspektivlər açıb. Regionda yeni əməkdaşlıq platformalarının yaradılması, işğaldan azad edilmiş ərazilərin potensialından səmərəli istifadə edilərək iqtisadi inkişafın sürətləndirilməsi və digər mühüm amillər ölkəmizə böyük üstünlüklər qazandırır. Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti, milli həmrəylik və xalq-iqtidar birliyi ölkəmizə yeni strateji nailiyyətlər qazandıracaq, Azərbaycan yeni zirvələrə doğru irəliləyəcək.

**Kərimova Tamilla Hüseynbala qızı**

# Həbsxanalarda koronavirusla bağlı vəziyyət ciddi deyil

## Əksinə, orada qorunma imkanları daha böyükdür



**Sabiq deputat, dələduzluğa görə məhkum olunan Rafael Cəbrayılov dünyasını dəyişib. Onun ölümü ilə bağlı təzadlı xəbərlər yayılır. İlk açıqlamada bildirildi ki, 62 yaşlı sabiq deputat Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Müalicə Müəssisəsində koronavirusdan dünyasını dəyişib.**

Sonra isə qeyd edildi ki, sabiq deputat Yeni Klinikaya köçürülübmüş və ağır vəziyyətdə olduğundan, ona yardım etmək mümkün olmayıb və orada da dünyasını dəyişib.

Penitensiar Xidmətdən verilən məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsində haqqında işinə baxılan Rafael Cəbrayılovun hüquqlarını müdafiə edən vəkili koronavirus infeksiyasına yoluxduğu üçün məhkəmə təxirə salınmışdı:

"Bundan sonra Rafael Cəbrayılovdan COVID-19 infeksiyasına qarşı test nümunələri götürülmüş və nəticəsi pozitiv çıxıb.

Cəzaçəkmə müəssisələrində könüllü olaraq aparılan kütləvi vaksinasiyadan qəti imtina edən 1958-ci il təvəllüdlü, xroniki şəkərli diabetin kəskinləşməsindən və arterial hipertoniyadan əziyyət çəkən Rafael Cəbrayılov müvafiq müalicə tədbirlərinə cəlb olunub, lakin xroniki xəstəlikləri ilə əlaqədar təhlükəli risk qrupuna daxil olması nəzərə alınaraq, sentyabrın 28-də o, müalicəsini davam etdirmək üçün Yeni Klinika xəstəxanasına yerləşdirilib.

Aparılan müalicə tədbirlərinə baxmayaraq, R.Cəbrayılov vəfat edib".

Xatırladaq ki, bundan öncə Ağstafa rayonunun sabiq icra başçısı Nizaməddin Quliyev həbsxanada vəfat etmişdi. Həbs edilən digər iki icra başçısı - Mahir Quliyev və Vilyam Hacıyev isə ağır vəziyyətdədir. Koronavirus pandemiyası çox məşhurların vaxtsız vəfatına səbəb olub. Ona görə "içəridə" olan tanınmışların da bu bəladan vəfat etməsini anlamaq mümkündür. Bir müddət öncə Penitensiar Xidmət bütün məhbusların koronavirus əleyhinə peyvənd olunduğunu açıqlayıb, amma təcridxanada ölüm və yoluxma halları da qeydə alınır.

***"Çünki məhbuslar ətraf mühitdən təcrid olunublar, əlaqə imkanları isə yox səviyyəsindədir"***

**Məsələ ilə bağlı "Şərq"ə danışan "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyevin fikrincə, həbsxanalarda koronavirusla bağlı vəziyyət ciddi deyil, əksinə, orada qorunma imkanları daha böyükdür. Çünki məhbuslar ətraf mühitdən təcrid olunublar, əlaqə imkanları isə yox səviyyəsindədir:**

"Hansısa əlaqələr yaradılsa da, ciddi müayinələrdən keçirlər. Görüş baş tutduqda fiziki təmas olmur, adətən şüşə arxasında keçirilir. Həbsxanada olan hər hansı bir şəxs özünü pis hiss edərsə, dərhal həkim müayinəsindən keçir. Bildiyim qədər həbsxanalarda çalışan bütün şəxslər vaksinasiyadan keçiblər. Digər tərəfdən xəstəlikdən qorunmaq üçün lazım olan bütün tədbirlər görülür. Məsələn, sosial məsafənin saxlanılması, dezinfeksiya vasitələrindən istifadə və s. Daimi olaraq həbsxanalara qoruyucu vasitələr gətirilir. Ancaq təcridxanalarda vəziyyət fərqlidir. Çünki orada fiziki təmas imkanı olur.



Digər bir məsələ budur ki, həbsxanada olan məhkumlar məhkəməyə gedirlər. Düzdür, çox vaxt onlayn sistemdən istifadə olunur.

Lakin elə məqam ola bilər ki, şahidlərin gəlməsi və canlı iştirakı vacib sayılır. Həbsxanalar da cəmiyyətin bir tərkib hissəsidir. Ona görə də məhbusların koronavirusa yoluxması mümkündür. Lakin cəzaçəkmə müəssisələrində COVİD-19-a yoluxma və ölüm halları daha aşağı faizi təşkil edir. Həbsxanalarda virusa yoluxma sırf oradakı vəziyyətin pis olması ilə yox, ümumi şəraitlə bağlı ola bilər".

**Yeganə Bayramova**

## Bakcell pandemiya dövründə gənclərin təhsilinə dəstək göstərib

**Bakcell şirkəti "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası ilə birlikdə valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə dəstək göstərir.**

Uzunmüddətli əməkdaşlıq çərçivəsində həyata keçirilən daha bir layihə - "COVİD-19 pandemiyası zamanı gənclərin təhsilinin kəsintisiz davam etməsinə dəstək" təşəbbüsü sayəsində 30 nəfər gənc karantin zamanı təhsillərini onlayn davam etdirə bilib. Bu məqsədlə Bakı və Gəncədə yerləşən SOS Uşaq Kəndləri lazımı sayda kompüter və internet bağlantısı ilə təchiz olunub. Nəticədə, təşkilatın himayəsindəki gənclərin təhsil və davamiyyət göstəriciləri pandemiyadan öncəki 2018/2019-cu təhsil ilinin göstəricilərini üstələyib.

"COVİD-19 bütün dünyanı dəyişib və biz KSM Strategiyamızın ən prioritet istiqamətlərindən olan gənclərin təhsilinə töhfə vermək üçün yeni üsullar tapmalı olduq. Biz daha çox uşağın keyfiyyətli təhsil alması üçün əlimizdən gələni edirik, çünki uşaqlar bizim gələcəyimizdir" deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, Bakcell 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb. Layihə assosiasiyanın himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə icra olunub. Layihədə iştirak edən gənclər "Bakcell"in maliyyə dəstəyilə öz kiçik bizneslərini qurublar.

Bakcell şirkətinin həyata keçirdiyi "Bakcell Stars" KSM proqramı ölkənin ən geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramlarından biridir. Proqramın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənclər üçün bərabər hüquq və imkanların yaradılması, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi ilə yanaşı gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır.

**Elan**

Turizm və Menecment Universitetinin Biznes idarəçiliyi fakültəsinin 3-cü kurs tələbəsi Zeynallı Hüseyn Xanlar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Ali məktəblərin giriş qapısı əsl yoluxma mənbəyidir

## Bu reallığı heç kim dərk etmək istəmir, heç Təhsil Nazirliyi də

*(Əvvəli səh: 8-də)*

*Bizdə vəziyyət necədir?*

Məlum olduğu kimi NK-nin qərarı ilə COVID-19 pasportu və ya immun sertifikatı olmayan tələbələr ali məktəblərə buraxılmır. Ona görə də ali məktəblərin giriş qapılarında sıxlıq yaranıb. Sıxlığı aradan qaldırmaq üçün ali məktəblər müxtəlif üsullardan istifadə edir. Məsələn, Azərbaycan Memarlıq və İnşaat Universitetində sıxlığın qarşısının alınması məqsədilə birinci kurslar üçün fakültələrin adları qeyd edilən lövhələr təşkil edilib. Hər bir tələbə təhsil alacağı fakültənin adı qeyd edilən lövhənin qarşısında toplaşır, ordan da fakültələrinə yönləndirilir. Azərbaycan Texniki Universiteti isə tələbələrin universitetə daxil olmasını iki ayrı qapıdan həyata keçirir. Girişdə tələbələrin hərarəti yoxlanır. Bunun üçün hər qapıda 10 əməkdaş xidmət göstərir. Hər iki qapıda ümumilikdə 10 ədəd turniket quraşdırılıb. Turniketdən istifadə etmək üçün tələbələrə smart kartlar paylanılır. Tələbələrin COVID-19 pasportu da həmin smart karta inteqrasiya olunub. Bu da o deməkdir ki, turniketdən istifadə zamanı vaksinasiyadan keçən və keçməyən tələbələr (18 yaşdan yuxarı) avtomatik müəyyən olunur. AzTU-da tədris həm ənənəvi, həm də onlayn təşkil olunub. Həftənin 1,3 və 5-ci günləri dərslər onlayn olacaq. Həmin günlər mühazirə dərsləri keçiriləcək. Məşğələ dərsləri isə həftənin 2-ci və 4-cü günləri ənənəvi formada təşkil ediləcək. 1-ci kurslar isə universitetə tanışlıq üçün dəvət olunub. Birinci kursların əksəriyyətinin 18 yaşı tamam olmadığı üçün onlardan COVID-19 pasportu tələb olunmur.



***Fərqli bir yol, yöntəm tapa bilmədilər, bütün təhsil ocaqlarının önü bazara oxşayır***

Vəziyyət belədir. COVİD pasportu olmayan tələbə əyani dərslərdə iştirak edə bilməyəcək. Yalnız onlayn dərslərə qoşula biləcək. Bu isə tələbənin tədrisdə geri qalmasıdır.

**Təhsil eksperti, fəlsəfə doktoru Rafiq İsmayılov "Şərq"ə açıqlamasında qeyd etdi ki, hər ali məktəb məsələyə özəl yanaşa bilər:**

- Hansı qərarda yazılıb ki, tələbələr məhz bu şəkildə - giriş qapısında COVİD pasportu yoxlandıqdan sonra içəri buraxılmalıdır? Bu yoxlanışı auditoriyada, dekanlıqlarda da etmək mümkündür. Ali məktəblərin əksəriyyəti publik hüquqi şəxsdir. Yəni özləri müstəqil qərar verə bilər. Prosesi elə aparmaq olar ki, kimsə zərər çəkməsin, acınacaqlı vəziyyət yaranmasın.

**R.İsmayılov bildirdi ki, bundan sonra tədrisin dayandırılacağını da düşünmür:**

- 2 illik koronavirus təcrübəsi göstərdi ki, bu dalğalar gəlir-gedir. Artıq COVİD-ə hamı adi qrip kimi baxmağa başlayıb. Virus da yorulub artıq. "Görür" ki, insanlar dirəniş göstərir. Hesab etmirəm ki, bundan belə hansısa sərt qapanmalara gediləcək. Əyani tədrisin yoluxmalar səbəbindən dayandırılması ancaq şagird və tələbələrin geri qalmasına səbəb olur. Pandemiya dövründə uşaqlar onsuz da çox geri qaldılar. Avropanın elə ölkələri var, ümumiyyətlə, vətəndaşlarına tam sərbəstlik verib. Buna kütləvi immunlaşma deyirlər. COVİD pasportu yoluxmanın qarşısını almırsa, tələbədən onu tələb etməyin nə mənası?!.

**Məlahət Rzayeva**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Hərracın keçirilməsinə dair elan

Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinin Ləgvetmə komissiyasının 29.09.2021-ci il tarixli, 29/09/2021 saylı sifarişi ilə ləğvetmədə olan şirkətə məxsus 27 ədəd inventarlar (elektron avadanlıqlar, ofis mebelləri) açıq hərraca çıxarılmışdır. Hərrac açıq auksion formasında sifarişçinin müəyyənləşdirdiyi qaydalara uyğun keçirilməklə 05 oktyabr 2021-ci il tarixə, saat 11 00-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir.

27 ədəd inventarların ümumilikdə ilkin satış qiyməti 985 (doqquz yüz səksən beş) manat məbləğində müəyyənləşdirilmişdir.

Hərracda iştirak üçün ilkin satış qiymətinin 5 %-i, yəni 49,25 (qırx doqquz manat iyirmi beş qəpik) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Adı: Ləğv prosesində olan ASC "Standard Insurance" Sığorta Şirkəti
Hesab №: AZ52PAHA35090AZNHC0190000581
VÖEN: 1300115641
Bank Adı: Paşa Bank ASC
Kodu: 505141
VÖEN: 1700767721
Müxbir hesab: AZ82NABZ01350100000000071944
S.W.I.F.T. PAHAAZ22
Hərrac addımı - əmlakın ilkin satış qiymətinin ən az 1 %-i qədər olmalıdır.

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır.

**1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

**2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın sifarişçisinin hesabına ödənildiyini təsdiq edən sənəd;

**3)** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**6)** şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**7)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beh məbləği geri qaytarılır.

**8)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) bank günü müddətində geri qaytarılır;

**9)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

Hərracın qalibi hərracın yekunları barədə alqı-satqı müqaviləsinin bağlandığı vaxt ödəməli olduğu pul vəsaitini "sifarişçi" nin hesablaşma hesabına köçürməlidir.

*Hərracın təşkilatçısı*
*"Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**
**Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1673



## Hərracda ən bahalı əşya kimi satılmışdı

40 il muzeydə sərgilənən əsərin saxta olduğu üzə çıxıb

**London Milli Qalereyası 1980-ci ildə Peter Paul Rubensin "Samson və Delilah" əsərini satın alıb. Döyüşçü Samsonun sevgilisi Delilaya xəyanət etdiyi hekayəsini təsvir edən əsər o zaman hərracda satın alınan üçüncü ən bahalı əşya idi.**

"Şərq" "Haberglobal.com"a istinadən xəbər verir ki, yeni süni intellekt 40 il ərzində muzeydə sərgilənən əsərin saxta olduğunu aşkar edib. Testlər sənət əsərlərini təsdiqləmək üçün alqoritmlərdən istifadə edən İsveçrə şirkəti "Art Recognition" tərəfindən aparılıb. Sistem əsl əsərlərin şəkilləri ilə alqoritmi öyrənərək rəssamın xüsusiyyətlərini təyin edir. Daha sonra gerçək olma ehtimalını qiymətləndirmək üçün əsərin xüsusiyyətlərini təhlil edir.

**Yeganə**

## Meşənin əcaib pişiyi

Antalyada göründü



**Nəsli tükənməkdə olan vəhşi pişiklər cinsindən olan "qaraqulaq" Antalyada üzə çıxıb. Ən maraqlısı da budur ki, "qaraqulaq"lar 3 pişikdən ibarət ailə şəklindədir.**

Bu vəhşi pişiklər çəkilərinin 2-3 qat ağırlığında heyvanları ovlaya bilmək gücünə sahibdirlər. Türkiyə mediasında yer alan xəbərdə bildirilir ki, 2 bala və bir anadan ibarət vəhşi pişik ailəsi Antalya, isparta və Burdur bölgələrini əhatələyən Təbiəti Qoruma və Milli Parklar 6-cı Bölgə Müdürlüyünün ərazisinə daxil olan meşəlikdə ortaya çıxıb. "Qaraqulaq" ailəsinin fotosu su kanalından su içərkən çəkilib. Onların ürkək halı da kameranın müşahidəsindən yayınmayıb. "Qaraqulaq"lar dovşan, gəmiricilər və müxtəlif quş növləri ilə qidalanır. Vəhşi pişiklər ağır çəkilərinə baxmayaraq bütün digər pişiklər kimi yüksəyə tullanıb çevik hərəkətlərlə quşları ovlaya bilmək qabiliyyətinə malikdirlər. Ön ayaqlarına nisbətdə arxa ayaqları daha uzun və daha güclüdür. Onlar sayəsində sıçrayış edirlər. Bununla yanaşı vəhşi pişiklər məməlilərlə də çox qidalanır. "Qaraqulaq"lar köçəri deyil, məskən saldıqları yerdən ayrılmır və ərazilərini qoruyurlar. İldə bir dəfə nəsil artırdıqları məlumdur. Başqa bir məlumatsa bundan ibarətdir ki, Türkiyə Radio və Televiziya Qurumu tərəfindən "qaraqulaqlar" haqqında sənədli film çəkilir. Türkiyə dövlət televiziyası TRT 2 ərzində Burdur bölgəsində çəkiliş aparacaq.

**Məlahət**














# Putinin tərcüməçisi ortalığı qarışdırdı

## Əsl məqsəd Trampın diqqətini dağıtmaq olub

**Məlahət Rzayeva**

**Danışıqlarda psixoloji metodlardan istifadə etdiyi bilinən Rusiya Prezidenti Vladimir Putinin ABŞ Prezidenti Donald Tramla görüşlərində tərcüməçilik edən xanımın əsl məqsədi üzə çıxıb. 2019-cu ildə Yaponiyanın Osaka şəhərində keçirilən "G20" Zirvə toplantısında iştirak edən Putinin yanındakı tərcüməçi qadının məgərsə əsl məqsədi Trampın diqqətini dağıtmaq imiş.**

Bu qadın latın amerikan rəqsi -salsa rəqqasəsi Darya Boyarskayadır. "Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, 36 yaşlı Darya Boyarskayaya G20 zirvə toplantısında Trampın diqqətini dağıtmaq vəzifəsi tapşırıldığı barədə Ağ Evin sabiq mətbuat katibi Stefani Grişham yaxın zamanda işıq üzü görəcək kitabında yazıb. Sabiq mətbuat katibi Putinin yanında "tərcüməçilik edən" hündür boylu, uzun ayaqlı, əsmər qadının salsa rəqqasəsi olduğunu yazır. O zaman Putinin yanındakı gözəl qadın ABŞ hökumətinin Rusiya üzrə mütəxəssisi Fiona Hill tərəfindən şübhə ilə qarşılanıb. Grişham kitabında "toplantı başlayanda Fiona mənə tərəf əyilib "Putinin yanındakı cazibədar əsmər qadını fərq etdinmi", soruşdu. Və bu qadından şübhələndiyini söylədi", yazır. Boyarskayanı diqqət mərkəzinə gətirən sosial mediada yayılan fotolarıdır. Rəsmi toplantılarda ciddi geyimləri ilə diqqət çəkən gözəlçənin bundan qat-qat artıq çəkiçi fotoları sosial mediada bəyənmə rekoru qırır. Qadın ATƏT Parlament Assambleyası və Xarici İşlər Nazirliyində çalışır, Vyanada mənzilə sahib olduğu da bildirilir.



**Putinin mətbuat katibi Peskov isə bu iddiaları rədd edərək Boyarskayanın "gizli bir silah" olaraq seçildiyinin doğru olmadığını deyib:** "Tərcüməçilər Xarici İşlər Nazirliyi tərəfindən təyin edilir, Putinin bu təyinatlarla əlaqəsi olmur". Lakin digər bir fakt - eyni qadının 2016-cı ildə Putinlə o dövrün ABŞ prezidenti Barak Obama ilə görüşü zamanı da tərcüməçilik etməsi iddiaların o qədər də yalan olmadığı ehtimalını artırır. Bu iddialar mediaya yayıldıqdan sonra sosial mediada cəlbedici fotolarıyla göz qamaşdıran Boyarskaya instagram hesabını bağlayaraq "tətilə" çıxıb.




## "İpi kəssəm, hamı yerə çırpılacaq"

İbrahim Tatlısəs keçmiş həyat yoldaşına xəbərdarlıq edib

**Türkiyəli məşhur müğənni İbrahim Tatlısəs ilə keçmiş həyat yoldaşı Ədalət Sara arasında qalmaqal yaşanıb.**

"Şərq" xəbər verir ki, Ə.Sara "Üç uşağımın da toyuna gəlmədi, onlarla heç vaxt maraqlanmadı" açıqlaması ilə eks-həyat yoldaşına irad bildirib. Müğənni keçmiş xanımının ittihamlarına sosial şəbəkə hesabında cavab verib:

"Geri döndüm, ipimdən yapışanlar çoxalıb. Amma o ipi kəssəm, hamısı yerə çırpılacaq. Xəbərdarlıq edirəm".

**Samirə**

## Film kimi olay...

Axtarışda olan adam özünü axtardı



**Türkiyədə film kimi olay yaşanıb. "Şərq"in məlumatına görə, hadisə Bursa şəhərində baş verib.**

İtkin düşən bir vətəndaş onu axtaran heyəti görüb. Axtarılan şəxsin özü olduğundan xəbərsiz adam axtarışı davam etdirən komandaya yardım etmək istəyib. Nəticədə o, bilmədən özünü axtarıb.

**Samirə**



# Ali məktəblərin giriş qapısı əsl yoluxma mənbəyidir

## Bu reallığı heç kim dərk etmək istəmir, heç Təhsil Nazirliyi də

**Məlahət Rzayeva**

**Bütün tədris müəssisələrində əyani dərslərin başlanması özüylə problemlər də gətirdi. Ən böyük problem də orta və ali məktəblərin önündə hədsiz sıxlıq yaranmasıdır. Orta məktəblərdə sıxlıq yaradan valideynlərdi. Bir uşaqla az qala bütün ailə üzvləri məktəbə gəlir, ona görə. Ali məktəblərdə isə məlum COVİD pasportu yoxlanışları.**

Ali məktəblərin giriş qapılarında yaranmış vəziyyətə quş baxışı nəzər yetirilsə, "bu yoxlanış yoluxmanın qarşısını almaq, yoxsa yoluxmaya şərait yaratmaq üçündür?" təəccübü ortaya çıxacaq. "Saçımızı qırxdırarkən başımızdan da olmayaq?!" misalı. Nə yazıq ki, nə orta məktəb, nə də ali məktəb rəhbərləri hər hansı səbəbdən yaranan sıxlığın yoluxma sayını artıracağı reallığını dərk etmirlər. Bunu heç Təhsil Nazirliyi də dərk etmir deyəsən. Bəlkə də edir, amma fərqli bir yol, yöntəm tapa bilmir. Bəlkə heç axtarmırlar da. Operativ Qərargah nə qərar verdisə, odur. Bu qərarların tətbiq ediləcəyi məkanların spesifikliyi isə kimsəni maraqlandırmır, düşündürmür. Halbuki, dünya 2 ilə yaxındır koronavirusla mübarizə apara-apara bir sıra təcrübələr əldə edib. Əyani tədrisə qərar verən təkcə Azərbaycan deyil. Dünyanın dörd bir yanında əyani tədris prosesi bizdən bir neçə gün öncə



### Fərqli bir yol, yöntəm tapa bilmədilər, bütün təhsil ocaqlarının önü bazara oxşayır

başlayıb. Və bu ölkələrdə tələbələr ali məktəbə giriş qapısında dəqiqələrcə dayanıb, içəri keçəcəkləri mübarək zamanı həsrətlə gözləmirlər. Məsələn, qardaş Türkiyədə 18 milyon şagird əyani tədrisə başlayıb. Məktəblərlə yanaşı yeməkxanalar, kafelər və pansionatlar da açılıb. Milli Təhsil Nazirliyi tərəfindən 58 min məktəbə koronavirusla mübarizə tədbirləri çərçivəsində tibbi maska, dezinfeksiyaedici məhlullar və gigiyenik vasitələr üçün 650 milyon lirə vəsait köçürülüb, 113 min təmizlik personalına təlimat verilib. Peyvənd məsələsi isə belədir: müəllim və təhsil işçisi peyvənd vurdurmayıbsa, həftədə 2 dəfə PCR testindən (koronavirus daşıyıcısı olub-olmadığını müəyyənləşdirən test) keçməlidir. Dərslər 40 dəqiqə olacaq. Dərslərarası fasilə siniflərdə mümkün olduğu qədər fərqli saatlarda tətbiq olunacaq. Pandemiya dönəmində valideynlərin məktəb həyatinə girişi də qadağandır. Türkiyədə ali məktəblərdə də əyani tədris başlayıb, lakin tələbələrdən COVİD pasportu tələb edilmir. Bu məsələ hər ali məktəbin öz ixtiyarına buraxılıb. Dərslərinsə 100-də 40-nın onlayn formatda keçirilməsi qərara alınıb. Məsələn, Hindistanda şagirdlərin məktəbə getməsi məcburi deyil. Şagird evdə, onlayn qaydada dərslərinə hazırlaşa bilər. İspaniyada isə şagirdlər arasında məsafə əksinə, azaldılıb - 1 metrdən 1.2 metrə endirillib.

(Davamı səh: 7-də)

## Dünyanın ən böyük silindrik akvariumu

1 milyon litr dəniz suyu ilə doldurulur



**Almaniyada "Radisson Blu" hoteli dünyanın ən böyük silindrik akvariumuna malikdir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, akvarium təxminən 1 milyon litr dəniz suyu ilə doldurulur. Doqquz metrlik beton təməl üzərində yerləşən akvariumda 56 növ 1500 tropik balıq üzür. Bir-birinə bağlanan, dörd hissədən ibarət olan akvarium akril şüşədən hazırlanıb və silindrik formaya malikdir.

Maraqlıdır ki, akvarium otelin əsas cazibəsinə çevrilərək tikilib. Otel qonaqlarına tropik sualtı dünyasına və ya şəhərə baxan 427 mənzil təklif edir.

## Sərvəti 200 milyard dolları ötdü

İlon Mask dünyanın ən varlı insanı olub



**"SpaceX" və "Tesla" kompaniyalarında hissələrə malik İlon Mask "Amazon" kompaniyasının qurucusu Ceff Bezosu qabaqlayaraq dünyanın ən varlı insanları reytinqində birinci yerə yüksəlib.**

Azərtac "Forbes" jurnalının "Real-Time" sayğacındakı məlumatlara istinadla xəbər verir ki, İlon Maskın sərvəti ilk dəfə 200 milyard dolları ötüb.

Sentyabrın 27-də birja hərraclarının sonunda onun varidatı sutka ərzində 3,8 milyard dollar artaraq 203,4 milyard dollara çatıb. İlon Mask sərvəti 200 milyard dolları keçən üçüncü insan olub. İlk dəfə bu həddi 2020-ci ilin avqustunda Ceff Bezos, ikinci dəfə isə bu ilin iyun ayında Louis Vuitton Mo?t Hennessy (LVMH) qrupunun prezidenti Bernar Arno keçmişdi.

Reytinqdə ikinci yerin sahibi Ceff Bezosun varidatı 197,7 milyard dollar həcmində qiymətləndirilir. Üçüncü pillədə qərarlaşan Bernar Arno 175,7 milyard dollar sərvət sahibidir. Siyahıda dördüncü yerdə 131 milyard dollarla "Microsoft" kompaniyasının qurucusu Bill Qeyts, beşinci yerdə isə 126,4 milyard dollarla "Facebook" sosial şəbəkəsinin yaradıcısı Mark Sukerberq qərarlaşıb.